

Milli azadlıqdan şirin nemət yoxdur!

# Vaxt yetişib...

## ATƏT-in Minsk qrupu ləğv edilməlidir!

### İlham Əliyev: Azərbaycan tərəfi bu məsələni qaldırıb və Ermənistan tərəfinin də buna razı olmaması üçün hər hansı bir səbəb görünmür



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
16 may 2024-cü il, cümə axşamı
№ 086 (6672)
Qiyməti 60 qəpik



Post

Ilham Aliyev
@presidentaz

I am shocked and appalled by the assassination attempt on Prime Minister Robert Fico. I strongly condemn this attack. My thoughts are with Prime Minister Fico, his family, and Slovak people. I wish him the soonest recovery.
@ZuzanaCaputova @SlovakiaMFA

7:12 PM · May 15, 2024 · 2,064 Views

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Slovakiya Respublikasının Baş naziri Robert Fitsoya qarşı sui-qəsd törədilməsini sərt şəkildə qınayıb.**
**Paylaşımda deyilir: "Baş nazir Robert Fitsoya qarşı sui-qəsd cəhdi məni dərindən sarsıtdı. Mən bu hücumu qəti şəkildə pisləyirəm. Baş nazir Robert Fitsonun, onun ailəsinin və slovak xalqının yanındayıq. Ona tezliklə şəfa tapmasını arzulayıram"**

# Qərar icra olunur...

## Sülhməramlılar ərazilərimizi tərk edir



Bax səh. 2

## Etnik-mədəni müxtəliflik ayırıcı xətt deyil, xalqlar arasında ahəngdar inkişafa xidmət edən unikal sərvətdir

Bax səh. 2

## Çin-Azərbaycan: "Yaşıl enerji"nin yaxın müttəfiqləri



Bax səh. 4

## Sülhə doğru...

Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunması, o cümlədən Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması bütövlükdə regionun gələcəyi üçün mühüm əhəmiyyət daşıyır. Azərbaycan regionda sülhün təmin olunması naminə irəli sürülən təşəbbüsləri hər zaman nəzərdən keçirir. Azərbaycan hər zaman sülhə sadiqlik göstərib, məsələlərin müzakirə ilə həllinə tərəfdar kimi çıxış edib. Təsadüfi deyil ki, Azərbaycanla Ermənistan arasındakı sülh prosesi də məhz ölkəmizin təşəbbüsü ilə başlayıb.

2020-ci il Vətən müharibəsi və 2023-cü il lokal antiterror tədbirləri Azərbaycanın ...

Bax səh. 3

## Dünyada yeni güc mərkəzi



Bax səh. 4

## Cəmiyyətlə dövləti birləşdirən qırılmaz bağ!

Dövlət və cəmiyyət bir-biri ilə əlaqədə olan anlayışlardır. Bu baxımdan ictimai və dövlət maraqlarının qorunması güclü ölkə olmaq deməkdir. Siyasi kimliyindən, mövqeyindən, dinindən, irqindən asılı olmayaraq, hər kəsin bu maraqları qorunması vətəndaşlıq borcu sayılır. Çünki ictimai və dövlət maraqlarına toxunan ən xırda məsələ belə millətə, ölkəyə, onun suverenliyinə, müstəqilliyinə zərər verə bilir. Bu baxımdan maraqların qorunması hər kəs üçün ən vacib vəzifədir.

Yeri gəlmişkən qeyd edək ki, təkcə ölkə daxilində deyil, ölkə hüdudlarından kənarda yaşayan azərbaycanlılar, həmvətənlərimiz də dövlət maraqlarını, milli maraqları, azərbaycançılıq ideyasını rəhbər tutmalıdırlar. Hətta yetişməkdə olan gənc nəsil də məhz dövlət maraqlarının müdafiəsinə həssas yanaşılması ruhunda tərbiyə edilməlidir. Hər birimiz...

Bax səh. 5

## Fintex strategiyası: bank və vətəndaş üçün faydası nə olacaq?

Azərbaycanda "2024-2028-ci illər üzrə fintex strategiyası" hazırlanır. Strategiyada rəqəmsal imkanların genişləndirilməsi, fintex üzrə qabaqcıl dünya alətlərinin ölkəmizdə tətbiqinin genişləndirilməsi, xarici şirkətlərlə bu sahədə əməkdaşlıq, yeni hədəflər öz əksini tapacaq. Qeyd edək ki, mayın 14-də Bakıda keçirilən "Fintex Sammit 2024" (Maliyyə və Texnologiyalar Expo) sammitində Azərbaycanın bank və maliyyə sistemində tətbiq olunan yeni innovativ layihələr və rəqəmsal yeniliklərdən bəhs edilib, ödəniş ekosisteminə dair fikir və təcrübə mübadiləsi aparılıb. Eyni zamanda, ölkəmizin fintex platformasında daha fəal yer alması üçün bir sıra həll yolları göstərilib.

Müasir dünyanın rəqəmsal arxitekturasında mühüm yer tutan fintex maliyyə...

Bax səh. 3

## Avtomobil parkı "yaşıllaşdırılır"...

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiyanın ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsində əks olunmuş tədbirlərdən biri də Azərbaycanda avtomobil parkının daha təmiz enerjiyə keçidinin təmin olunması, "yaşıllaşdırılması"dır. Həmin sənəddə Azərbaycana idxal olunan avtonəqliyyat vasitələrində "Avro-5" və daha yüksək ekoloji standartların tətbiqi üçün zəruri və təxirəsalınmaz addımların atılması nəzərdə tutulub. Bu məqsədlə hökumətin müvafiq aidiyyatı qurumları tərəfindən sentyabrın 1-dək tədbirlər planı hazırlanacaq.

**Avtomobil parkında vəziyyət necədir?**

2024-cü il yanvarın 1-ə olan məlumata əsasən, ölkəmizdə dövlət qeydiyyatına alınmış 1 milyon 774 min 77 nəqliyyat vasitəsindən...

Bax səh. 6

## "Göyçəyə dönəcəyik!"

Qudsal 44 gündən geriyə qalan çox şey olduqürur, şəhid xəbərlərinin ruhumuzda yaratdığı göynək, sevinc göz yaşlarıyla kədər göz yaşlarının bir-birinə həyan olması-dolayısı ilə, həyatın özü! Ən əsası isə o günlər xalqımıza əvəzolunmaz yurd vüsalı yaşatdı!

Onlar isə həmişəyaşıl olan ümidlərini bu vüsalla suladılar, Zəfər adlı günəşə doğru bir boy daha ucaltdılar. Onlar Qərbi Azərbaycanın illərdir ki, yurdlarından didərgin düşmüş sakinləridir. Şair, nasir Güldərən Vəli Göyçə mahalının Dərə kəndində anadan olub. İlk dəfə məktəbə o kənddə gedib, təbiətin sehrinə o kənddə qapılıb... Suyundan içib, nemətlərindən dadıb, böyüyüb, şəxsiyyət kimi formalaşıb. İlk şeirini orada yazıb, ilk hekayəsinin qəhrəmanları o kəndin sakinləri olub. İki körpəsini o kənddə qucağına alıb, təbiətin, həyatın çoxçalarlı palitrasına batırdığı xəyal fırçasıyla ümidlərini o kənddə rəngləyib...

**"Basarkeçər rayonunun Dərə kəndi...**

Bax səh. 6



## Bob Menendes məhkəmə qarşısında

Bax səh. 7



## "Qərbin arzuları"...

Bax səh. 7

# Etnik-mədəni müxtəliflik ayırıcı xətt deyil, xalqlar arasında ahəngdar inkişafa xidmət edən unikal sərvətdir

***"Transformativ dialoq: sürətlə dəyişən dünyada sülh naminə alyansların qurulması" mövzusunda Qlobal Dialoq Forumunun iştirakçılarına***

Hörmətli Forum iştirakçıları!

Sizi Kral Abdullah bin Əbdüləziz Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) Lissabon şəhərində təşkil etdiyi Qlobal Dialoq Forumunun öz işinə başlaması münasibətilə salamlamaqdan məmnunluq duyuram.

Qloballaşan və sürətlə transformasiya olunan müasir dünyada son dərəcə mürəkkəb ictimai-siyasi proseslər baş verir, etnik-dini zəmində münaqişələr və qütbləşmələr, irqi ayrı-seçkilik, dini ekstremizm, ksenofobiya kimi təhlükəli təzahürlər müşahidə edilir. Beynəlxalq təhlükəsizliyi və bəşəriyyətin əmin-amanlığını təhdid edən belə hallara qarşı mübarizədə dünya dinlərinin sülh və həmrəylik çağırışlarına, sivilizasiyalararası dialoqa, dünyəvi və dini ittifaqların birgə səylərinə ciddi ehtiyac vardır.

Müxtəlif din və inanc mənsublarını, dini liderləri, vətəndaş cəmiyyəti nümayəndələrini və siyasətçiləri bir araya gətirən, insanlar arasında ədaləti, sülhü, sosial-mənəvi vəhdəti təşviq edən KAICIID tərəfindən böhranlı vəziyyətlərdə sülh quruculuğu, inklüziv cəmiyyət və ətraf mühitlə bağlı aktual problemlərin müzakirəyə çıxarılmasını təqdirəlayiq hesab edirəm.

Fərqli sivilizasiyaların qovşağında yerləşən Azərbaycanda heç vaxt etnik-dini zəmində ayrı-seçkilik və qarşıdurma baş verməmiş, tarixən qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olmuşdur. Tolerantlıq və multikultural dəyərlər Azərbaycan cəmiyyətinin demokratik birgəyaşayış normasıdır. Bakıda keçirilən ənənəvi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Beynəlxalq Humanitar Forum, Dünya Dini Liderlərinin Sammiti kimi nüfuzlu tədbirlər mədəniyyətlərarası münasibətlərin inkişafında mühüm rol oynayır. Biz inanırıq ki, etnik-mədəni müxtəliflik ayırıcı xətt deyil, əksinə, xalqlar arasında ahəngdar inkişafa xidmət edən unikal sərvətdir.

Bu ilin noyabrında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində nəzərdə tutulmuş dünya dini liderlərinin zirvə görüşü, əminəm ki, qlobal iqlim dəyişmələri problemlərinin həllində siyasət və din xadimlərinin həmrəyliyinin vacibliyini bir daha təsdiq edəcəkdir.

Hazırda planetimizin müxtəlif bölgələrində, fərqli coğrafiyalarda baş verən geostrateji ziddiyyətlər beynəlxalq təhlükəsizlik arxitekturasının dəyişməkdə olduğunu göstərir, ikitərəfli və çoxtərəfli münasibətlərdə yeni yanaşmalar tələb edir. Müasir çağırışlar dinin cəmiyyət həyatında və beynəlxalq münasibətlərdə rolunun düzgün müəyyənləşdirilməsi, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməsi və sivilizasiyalararası əməkdaşlığın gücləndirilməsi zərurətini qarşıya qoyur.

Bu gün bəşəriyyətin üzləşdiyi qlobal problemlərin vaxtında qarşısının alınması üçün hər kəs öz məsuliyyətini dərk etməli, dövlət rəhbərlərinin və dini liderlərin bütün səy və imkanları narahat dünyamızın firavan, sabit və dayanıqlı gələcəyi naminə səfərbər olunmalıdır.

İnanıram ki, KAICIID-in yüksəksəviyyəli Qlobal Forumu konstruktiv müzakirələr ruhunda keçəcək, beynəlxalq sülhə və təhlükəsizliyə, müxtəlif tərəflər arasında qarşılıqlı anlaşmaya, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa əhəmiyyətli töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, Forumun işinə uğurlar diləyirəm.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Vaxt yetişib...

## ATƏT-in Minsk qrupu ləğv edilməlidir!

## İlham Əliyev: Azərbaycan tərəfi bu məsələni qaldırıb və Ermənistan tərəfinin də buna razı olmaması üçün hər hansı bir səbəb görünmür

**44 günlük Vətən müharibəsində qazanılan Zəfər və 2023-cü ilin sentyabrında baş tutmuş antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa olundu. Bu, həm də beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsinə, ədalətin bərpasına yol açdı. 30 ilə yaxın icrası həyata keçirilməyən BMT TŞ-nin məlum 4 qətnaməsi məhz Azərbaycan tərəfindən icra edildi. Yeni mərhələdə isə artıq sülh müqaviləsi aktuallıq daşımaqdadır. Nəzərə alsaq ki, xarici işlər nazirləri səviyyəsində keçirilmiş son Almatı görüşü bu istiqamətdə əsaslı addım kimi qiymətləndirilir, sülhün yaxın zamanda reallaşacağı ilə bağlı ümidlər artır. Hər iki tərəfin ortaya qoyduğu mövqe bunu deməyə əsas verir. Bölgəyə sabitlik və inkişaf vəd edəcək sülhün reallaşması üçün Azərbaycan dövlətinin ortaya qoyduğu səylər isə olduqca böyükdür. 2022-ci ilin martında sülhlə bağlı baza təkliflərini təqdim edən Azərbaycan bununla da danışıqlar prosesinə yeni ruh qazandırdı - təsadüfi deyil ki, bu gün mövqelərdəki yaxınlaşmalar məhz Azərbaycanın irəli sürdüyü və beynəlxalq hüquqa əsaslanan baza prinsipləri əsasında reallaşır. Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borqu qəbul edərkən bildirib ki, Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin və bu prosesin əsasını təşkil edən fundamental prinsiplərin təşəbbüskarı məhz ölkəmiz olub və sülh müqaviləsinin mətni də Azərbaycan tərəfindən hazırlanaraq müzakirəyə təqdim edilib. Dövlətimizin başçısı vurğulayıb ki, hazırda sülh gündəliyinin irəliyə aparılması üçün Azərbaycan ilə Ermənistan arasında danışıqlar prosesi davam etdirilir.**



## ATƏT-in Minsk qrupu torpaqların azad edilməsi üçün heç nə etmədi

Diqqət yetirsək, artıq tarixə qovuşmuş "münaqişənin" həlli ilə bağlı vasitəçi qismində çıxış etdiyini irəli sürən qurumlar real fəaliyyəti ilə yadda qalmayıb -bu dövr ərzində yalnız Azərbaycana qarşı fərqli standartlardan çıxış edən bu beynəlxalq təsisatlar ədalətin bərpası üçün heç bir təsiredici vasitələrdən istifadə etməyib. Bu mənada, ATƏT-in tarixə qovuşmuş "Minsk qrupu"nun fəaliyyət(sizliy)i xüsusi vurğulanmalıdır. Xatırladaq ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin tənzimlənməsi üzrə birbaşa vasitəçi qismində tanınan "Minsk qrupu"nun əsası 1994-cü ildə keçirilən ATƏM-in Budapeşt Zirvə toplantısı zamanı qoyulub. Həmin toplantıda Ermənistan-Azərbaycan münaqişəsinə dair Budapeşt sammitinin işinin konkret yekunu olaraq "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" adlı qərar qəbul olunub. Budapeşt Sammitinin nəticələrinə əsasən, 20 dekabr 1994-cü ildə Vyanada Ermənistan-Azərbaycan münaqişəsi üzrə ATƏT-in üzv ölkələrinin təyin etdiyi hərbi nümayəndələrdən ibarət Yüksək Səviyyəli Planlaşdırma Qrupu (YSPQ) təsis olunub. 28 avqust 1995-ci ildə isə ATƏT-in Fəaliyyətdə olan Sədrinin ATƏT-in Minsk Konfransının müzakirəsində olan münaqişə üzrə Şəxsi Nümayəndəsi (ŞN) vəzifəsi təsis olunub. 1 yanvar 1997-ci ildən ATƏT-in Minsk prosesinə Həmsədrlər qismində ABŞ, Rusiya və Fransa başçılıq ediblər. Nəticə etibarı ilə isə, ötən dövr ərzində ATƏT-in Minsk qrupunun həmsədrlərinin bölgəyə yüzlərlə, bəlkə də minlərlə səfərləri gözdən pərdə asmağa xidmət etdi, problemin həllində iştirak isə ümumiyyətlə nəzərə çarpmadı. İllər boyu yalnız turistik səfərləri ilə yadda qalan, vasitəçi olsa belə, Ermənistanın maraqlarının açıq müdafiəçisinə çevrilən, hətta işğalçı ilə işğala məruz qalmış arasında bərabərlik işarəsi qoymağa çalışan ATƏT-in Minsk qrupu hüquqları pozulan azərbaycanlıları görməzdən gəldi. Aparılan danışıqlarda Ermənistana təzyiq göstərməyi, etdiyi cinayətlərə görə bu ölkədən hesab tələb etməyi yada belə salmayan Minsk qrupunun fəaliyyətsizliyi isə həm də beynəlxalq hüquqa qarşı qurumun hörmətsizliyi idi. Prezident İlham Əliyev bildirib ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün və torpaqlarımızın işğalının nəticələrinin aradan qaldırılması ATƏT-in yaranmasından bu təsisatın gündəliyində olmasına baxmayaraq, nə bu təşkilat, nə də ATƏT-in Minsk qrupunun həmsədrlik mexanizmi münaqişənin nəticələrinin aradan qaldırılması, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, məcburi köçkünlərin geri qayıtması üçün heç nə etməmişdir. Bu illər ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən aparılan danışıqlar prosesi də Azərbaycan ərazilərinin işğalının davam etdirilməsinə xidmət göstərmişdir.




## Azərbaycan iradəsi və gücü hesabına işğala son qoyub

44 günlük müharibə ilə başa çatan "münaqişə" həm də ATƏT-in Minsk qrupunu tarixin arxivinə yolladı. Artıq tərəflər vasitəçisiz bir ortamda razılaşmanın bir addımlığındadırlar. Son reallıqlar bu quruma ehtiyacın qalmadığını faktiki olaraq ortaya qoyur. Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrini qəbul edərkən deyib ki, Azərbaycan öz iradəsi və gücü hesabına beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini təmin edərək işğala son qoyub. Artıq Ermənistan-Azərbaycan münaqişəsinin tarixdə qaldığını və mövcud olmadığını deyən dövlətimizin başçısı qeyd etdi ki, buna görə ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtıdır. Azərbaycan tərəfi bu məsələni qaldırıb və Ermənistan tərəfinin də buna razı olmaması üçün hər hansı bir səbəb görünmür

Bəli, artıq Azərbaycanın ərazi bütövlüyü təmin edilib, suverenliyi bərpa olunub. Regionda sülhün və təhlükəsizliyin təmini, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi isə ikitərəfli xarakter daşıyır. Son təmaslar da sübut etdi ki, ikitərəfli, vasitəçisiz danışıqlar daha effektivdir. Beləliklə, "Minsk qrupu" kimi fəaliyyətsiz strukturların saxlanılması heç bir aktuallıq kəsb edə bilməz.

***P.SADAYOĞLU***

# Qərar icra olunur...

## Sülhməramlılar ərazilərimizi tərk edir

**2020-ci ilin 10 noyabr üçtərəfli Bəyanatının müvafiq olaraq 3 və 4-cü bəndlərinə əsasən Azərbaycan ərazilərinə yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin fəaliyyəti yekunlaşmaq üzrədir. Razılaşmaya əsasən nəzərdə tutulan müddət, yəni, 5 il bitməsə də tərəflər arasında bununla bağlı razılıq əldə edilib. Artıq bir sıra ərazilərdə xidmət aparan Rusiya sülhməramlıları geri qayıdır. Yaxın zamanda isə prosesin tam şəkildə yekunlaşacağı gözlənilir. Yeri gəlmişkən, Xocalıda Rusiya Sülhməramlı Kontingentinin Azərbaycanın Qarabağ bölgəsindən çıxarılmasına həsr olunmuş mərasim keçirilib. Tədbirdə Azərbaycan və Rusiya Müdafiə nazirliklərinin yüksək rütbəli hərbçiləri iştirak edib. Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi polkovnik Anar Eyvazov açıqlamasında bildirib ki, Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin çıxarılması prosesi yaxın vaxtlarda yekunlaşacaq. "Azərbaycan və Rusiya dövlət başçıları arasında əldə olunmuş razılığa əsasən, sülhməramlı kontingentin missiyasının vaxtından əvvəl başa çatmasına və Azərbaycan ərazini tərk etməsinə qərar verilib. Qərar veriləndən dərhal sonra Müdafiə Nazirliyinin müvafiq göstərişinə uyğun olaraq, kontingentin silah və texnikasının, şəxsi heyətinin Azərbaycan ərazisindən çıxarılması üçün zəruri texniki və logistik dəstək göstərilib. Bugünkü tədbir də sülhməramlı kontingentin missiyasının başa çatması ilə əlaqədardır. Sülhməramlı kontingentin bazasında keçirilən bu tədbirdə Azərbaycan və Rusiya tərəfindən yüksək rütbəli zabitlər iştirak edir", - MN rəsmisi qeyd edib. Anar Eyvazov vurğulayıb ki, sülhməramlıların ərazini tərk etməsi prosesi hazırda da davam etdirilir və yaxın vaxtlarda yekunlaşacaq: "Onu da qeyd edim ki, sülhməramlıların Azərbaycan ərazilərini tərk etməsi plana uyğun olaraq həyata keçirilir. Bununla bağlı əlavə məlumat veriləcək".**

## Bu addım iki ölkə rəhbərinin qərarına əsasən həyata keçirilir

### Yüksək siyasi dialoq, əməkdaşlıq imkanları

Cənubi Qafqazın lider dövləti olan Azərbaycan milli maraqlara əsaslanan, səmərəli və praqmatik xarici siyasət həyata keçirir. Eyni zamanda, ölkəmiz regionda sabitləşdirici aktor kimi fəaliyyət göstərməklə bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. 2020-ci il Vətən müharibəsi, 2023-cü il antiterror tədbirlərinin ardından ölkəmiz regional güc mərkəzi kimi bölgədə sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Bir sözlə, uğurlu və praqmatik xarici siyasət Azərbaycanın beynəlxalq mövqeyinin mütəmadi olaraq möhkəmlənməsini təmin edib, respublikamızla əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır, eyni zamanda əməkdaşlıqların mahiyyəti və xarakteri dəyişir, keyfiyyət etibarı ilə yenilənir. Bu mənada, Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlıq mövcuddur. İki ölkə arasındakı yüksək siyasi dialoq bir çox məsələlərin həllində əsaslı rol oynayıb - qonşu dövlətlər xüsusilə müdafiə və təhlükəsizlik sahəsində yaxın tərəfdaşlıq həyata keçirir. Dövlətlər arasında çox geniş müqavilə-hüquq bazası formalaşdırılıb - Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 3 iyul 1997-ci il tarixli Müqavilə, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında dostluq və strateji tərəfdaşlıq haqqında 3 iyul 2008-ci il tarixli Bəyannamə və digərləri bu baxımdan xüsusi önəm kəsb edir. 2022-ci ilin fevralında imzalanan Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə isə Azərbaycan - Rusiya münasibətlərini keyfiyyətcə yeni mərhələ formalaşdırdı. Bəyannamənin səciyyəvi xüsusiyyətlərindən biri yeni geosiyasi situasiyanı, daha dəqiq desək, Azərbaycanın yaratdığı reallıqları - postmüharibə dövrünü əks etdirməsidir. Bu, Azərbaycanın milli maraqlarına tam uyğundur, postmünaqişə mərhələsində regional sülh və təhlükəsizliyin təmin olunmasına hədəflənən aydın mövqedir.



2020-ci ilin noyabrında imzalanan üçtərəfli Bəyanatla Azərbaycana gələn sülhməramlıların ölkəsinə qayıtması da məhz yeni reallıqların nəticəsidir - bölgədə sülhün və sabitliyin formalaşması artıq yeni bir mənzərə ortaya qoymaqdadır. Azərbaycanın nümayiş etdirdiyi mövqe isə bu sabitliyin əbədi olaraq qorunmasına hədəflənib. Yeni dövrdə bölgədəki sabitlik amilinin yüksəldilməsi, təhlükəsizlik seqmentinin artması iqtisadi-ticari münasibətlərin daha yüksək səviyyəyə çatmasını şərtləndirəcək. Azərbaycanın həm Rusiya, həm də Cənubi Qafqaz üçün oynadığı rol bütün mənalarda əhəmiyyətini artırmaqdadır. Bu baxımdan, sülhməramlıların fəaliyyətlərini yekunlaşdıraraq öz dövlətinə qayıtması Azərbaycan - Rusiya münasibətlərinə mənfi təsir etmir, əksinə, münasibətləri daha da gücləndirən amil kimi çıxış edir.

### Sülhməramlıların qayıtması münasibətləri gücləndirən amil kimi çıxış edir

Vurğulanmalıdır ki, kontingentin fəaliyyəti iki dövlətin başçısının qərarına əsasən həyata keçirilib - ötən ilin payızında baş tutan Valday Beynəlxalq Disskusiya Klubunda sülhməramlılarla bağlı məsələyə münasibət bildirən Rusiya Prezidenti Vladimir Putin bildirmişdi ki, sülhməramlıların hüquqi statusu istisnasız olaraq üçtərəfli Bəyanatına əsaslanır. Vurğulanmışdı ki, sülhməramlıların heç bir statusu müəyyən edilməyib. Beləliklə, üçtərəfli bəyanata əsasən bölgəyə gələn sülhməramlılar öz missiyalarını həyata keçirərək yeni xidmət ərazilərinə qayıdırlar. Onların Azərbaycan torpaqlarını tərk etməsində heç bir hərbi komponent yoxdur.

### Xəyanətkarların siyasi manipulyasiya cəhdi iflasa uğradı



Qeyd edilməlidir ki, Rusiya sülhməramlı kontingenti mövzusunun zaman-zaman anti-Azərbaycan dairələrin maliyyələşdirdiyi xəyanətkar media və digər maraqlı qüvvələr tərəfindən manipulyasiyaya uğradılma cəhdləri ilə üzləşmişik. Ötən 4 ildə bu mövzunu istismar etməklə öz marağına uyğun "istiqamətləndirən" xain qruplar reallığı görməzdən gəliblər - hətta ayrı-ayrı vaxtlarda buna fərqli don geyindirməyə də çalışıblar. Halbuki




Azərbaycan hər zaman bildirib ki, sülhməramlı kontingent məhz üçtərəfli bəyanata əsasən bölgəyə gəlib. Azərbaycan ərazisində olan Rusiya sülhməramlılarının heç vaxt çıxmayacağı barədə iddiaları iflasa uğrayanlar isə növbəti dəfə fərqli siyasi oyunların komponentləri olduqlarını sübuta yetirirlər. İstər adını media qoymuş xəyanətkar dəstə, istərsə də "müxalifət" adlanan azlıq bu kimi manevrlərlə ölkəmizin yürütdüyü xarici siyasət kursuna kölgə salmaq, dövlətlərarası münasibətlərə zərər vermək istəyiblər. Amma nəticə ortadadır - bu gün Azərbaycan ilə Rusiya arasındakı əlaqələr bütün müstəvilər üzrə real inkişaf trayektoriyasına malikdir. Qonşu dövlətlər milli maraqları çərçivəsində tərəfdaşlıqlarını daha da inkişaf etdirmək əzmini nümayiş etdirirlər...

***S.İSMAYILZADƏ***

# İki ölkə arasında əlaqələr inkişaf edir

Mayın 15-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyev ölkəmizdə səfərdə olan Belarus Respublikasının Baş nazirinin müavini İqor Petrişenko ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Belarus arasında münasibətlərin hazırkı vəziyyətindən məmnunluq ifadə olunub. Ölkələrimiz arasında strateji tərəfdaşlıq xarakteri daşıyan əlaqələrin formalaşmasında və inkişafında dövlətlərimizin başçılarının səmimi dostluq münasibətlərinin mühüm rol oynadığı qeyd edilib.

Həmçinin bildirilib ki, son illər ərzində iki dövlət arasında əlaqələr bir çox istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə uğurla inkişaf edir, beynəlxalq və regional təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq həyata keçirilir.

Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə qısa müddət ərzində genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını bildirib. Prezident Administrasiyasının rəhbəri "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq görülən işlər nəticəsində artıq keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmağa başladıqlarını və bu prosesin qarşıdakı müddətdə daha da sürətlənəcəyini vurğulayıb.

Görüşdə işğaldan azad edilmiş ərazilərdə də iki ölkə arasında əməkdaşlıq üçün geniş imkanların olduğu qeyd edilərək, bu istiqamətdə fikir mübadiləsi aparılıb.

Sonda Samir Nuriyev İqor Petrişenkoya "Qarabağ işğaldan əvvəl və sonra" kitabını hədiyyə edib.

# Regional vəziyyət müzakirə olunub

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov mayın 15-də ölkəmizdə səfərdə olan Belarusun xarici işlər naziri Sergey Aleynik ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov və həmkarı Sergey Aleynik arasında keçirilən təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Görüşdə Azərbaycan və Belarus arasında mövcud strateji tərəfdaşlıq münasibətlərindən irəli gələn məsələlər, Belarus Prezidentinin ölkəmizə planlaşdırılan dövlət səfərinə hazırlıq məsələləri, habelə regional vəziyyət müzakirə olunub.

Tərəflər iki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən 30 ildən artıq müddət ərzində iqtisadiyyat, ticarət, emal sənayesi, kənd təsərrüfatı, nəqliyyat, turizm, əczaçılıq, yüksək texnologiyalar, humanitar və sair istiqamətlər üzrə qarşılıqlı faydalı əməkdaşlıq gündəliyinin formalaşmasını məmnunluqla qeyd ediblər. Xüsusilə, iqtisadi sahədə əlaqələrin genişləndirilməsində yaxın günlərdə növbəti iclasının keçiriləcəyi iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın əhəmiyyətli rol oynadığı diqqətə çatdırılıb. İki ölkənin liderləri arasında intensiv təmasların mövcud siyasi dialoqun inkişafında müstəsna rolundan bəhs edən C.Bayramov Belarus Prezidentinin ölkəmizə dövlət səfərinin, habelə səfər çərçivəsində müxtəlif sahələr üzrə sənədlərin imzalanacağının əhəmiyyət kəsb etdiyini bildirib. Mövcud strateji tərəfdaşlıq xarakterli ikitərəfli münasibətlərin regional və beynəlxalq çoxtərəfli platformalar, o cümlədən BMT, ATƏT və MDB çərçivəsində uğurla davam etdirildiyi bildirilib.

Qarşı tərəf, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, bu istiqamətdə əməkdaşlıq imkanları barədə ətraflı məlumatlandırılıb.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyimiz, bu çərçivədə aparılan danışıqlar prosesi və görülən təşkilati tədbirlərdən bəhs edən Ceyhun Bayramov sədrliyimiz müddətində tərəfdaşlarımızın dəstək və aktiv iştirakçılığına əhəmiyyət verdiyimizi diqqətə çatdırıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Sülhə doğru...

## Birbaşa dialoq sazişin imzalanma prosesini irəli aparır

*Nardar BAYRAMLI*





Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunması, o cümlədən Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması bütövlükdə regionun gələcəyi üçün mühüm əhəmiyyət daşıyır. Azərbaycan regionda sülhün təmin olunması naminə irəli sürülən təşəbbüslərin hər zaman nəzərdən keçirir. Azərbaycan hər zaman sülhə sadiqlik göstərib, məsələlərin müzakirə ilə həllinə tərəfdar kimi çıxış edib. Təsadüfi deyil ki, Azərbaycanla Ermənistan arasındakı sülh prosesi də məhz ölkəmizin təşəbbüsü ilə başlayıb.

### Sülh danışıqları intensivləşib

2020-ci il Vətən müharibəsi və 2023-cü il lokal antiterror tədbirləri Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin edib. Qarşıdakı mərhələ isə regionda təhlükəsizlik arxitektirasının formalaşması istiqamətində irəliləyişi əhatə edir. Bu, özlüyündə daha geniş anlam daşıyır. Ermənistanın sülhə bağlı real münasibət nümayiş etdirəcəyi, təhdid olmaqdan vaz keçəcəyi təqdirdə özünün də yeni inkişaf mərhələsinə qədəm qoya bilər. Bunu anlayan və görən dünya birliyi məsələnin mahiyyətini də obyektiv şəkildə dəyərləndirir. Azərbaycanın sülh üçün yaratdığı pozitiv imkanlar mühüm məqamlardan xəbər verir. Təbii ki, məsələnin real həllində maraqlı olan tərəflər həm də bu sülhün əbədiliyi və möhkəmliyi üçün səy göstərməlidir. Bu gün Azərbaycan bölgənin yeni inkişaf mərhələsi naminə məhz dayanıqlı və əbədi sülhü təbliğ edir.

Qeyd edək ki, son zamanlar Azərbaycanla Ermənistan arasında sülh danışıqları intensivləşib. Bunu xarici işlər naziri Ceyhun Bayramov da təsdiqləyib. O, ATƏT-in fəaliyyətdə olan sədri Yan Borqla keçirdiyi birgə mətbuat konfransında deyib ki, bu ilin fevral ayından etibarən sülh müqaviləsi üzrə intensiv danışıqlar bərpa edilib: "Buna qədər əvvəlki müddətdə sənədlərin və şərtlərin mübadiləsi baş verirdi, sadəcə, fiziki görüşlər dayandırılmışdı. Amma Münhen, Berlin və Almatı görüşləri ilə proses davam etdirildi. Son görüş nəticəsində xeyli müzakirə aparıldı. Mən bununla bağlı detallara varmaq istəməsəm də, bu danışıqları müsbət qiymətləndirirəm". XİN rəhbəri onu da qeyd edib ki, gözləntilər uyğun və realist olmalıdır: "Bu, olduqca mürəkkəb və lazımlı prosesdir. Sülh sazişi Azərbaycan tərəfi üçün ədalətli və beynəlxalq hüquqa əsaslanan, gələcəkdə hansısa şübhəli məqamları masa üzərinə gətirilməsini istisna edən saziş olmalıdır. Eləcə də, sözsüz, qarşı tərəfin də gözləntilərini nəzərə alır, qarşılıqlı həll yolları üçün çalışırıq. Almatı danışıqları növbəti bir addım olub. Bu böyük addımdır, ya kiçik, bunu yalnız prosesin sonunda biləcəyik. Amma deyim ki, bu, prosesin önəmli bir hissəsidir. Bunu biz mətbuata açıqlama zamanı da bildirmişdik ki, tərəflər danışıqların davam etdirilməsi barədə razılıq əldə ediblər. Düşünürəm ki, yaxın gələcəkdə bunun şahidi olacağıq".

### Birbaşa dialoq prosesi irəli aparır

Diqqətçəkən məqam ondan ibarətdir ki, C.Bayramov Azərbaycanla Ermənistan arasında normallaşma prosesində son zamanlar baş verən müsbət inkişafı "tarixi nəticə" adlandırıb. Belə bir nəticə isə iki dövlət arasında birbaşa danışıqlar yolu ilə əldə edilib. Nazirin fikrincə, prosesin digər effekti ondan ibarətdir ki, bu istiqamətdə ciddi nailiyyətlərin əldə olunması üçün siqnaldır.

Göründüyü kimi, Azərbaycan-Ermənistan normallaşma prosesi istiqamətində iki ölkə arasında birbaşa danışıqlardan istifadə edilməsi ən müsbət nəticə verən formatdır. Bunun təsdiqi kimi son altı ayda bir sıra etimad quruculuğu tədbirlərinə nail olunmasını misal kimi göstərmək mümkündür. Məsələn, ötən ilin dekabrında COP29-la bağlı razılaşmanı, əsir və girovların qaytarılmasını beynəlxalq ictimaiyyət alqışladı. Ən yeni irəliləyişlər sırasında isə apreldə iki ölkə arasında Azərbaycan-Ermənistan sərhədinin bir hissəsində delimitasiya prosesinə start verilməsi və burada siyasi-diplomatik yolla Azərbaycanın uzun illər ərzində işğal altında olan 4 kəndinin azad olunmasını xatırlatmaq olar.

Yeri gəlmişkən, qarşı tərəfdən də sülh sazişinin imzalanmasının vacibliyinə dair fikirlər çoxalır. Bugünlərdə Ermənistanın baş naziri

Bir neçə gün öncə Ermənistan parlamentinin spikeri Alen Simonyan da tərəflər arasında sülh müqaviləsinin tezliklə imzalanmalı

### Ermənistan da sülhün alternativinin olmadığını etiraf edir, amma...

Nikol Paşinyan Kopenhagen Demokratiya Sammitində çıxışı zamanı Azərbaycanla əldə olunan razılaşmaların sülh müqaviləsinə daxil edilməsinin və imzalanmasının vaxtı çatdığını deyib. Onun sözlərinə görə, bütün çağırışlara baxmayaraq, "Ermənistan demokratiyanın əsl və ən arzuolunan yoldaşının" davamlı və sabit sülh olduğuna inanır: "Hökumətim buna görə məsuliyyəti öz üzərinə götürüb. Biz bu yaxınlarda Azərbaycanla 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında dövlətlərarası sərhədlərimizin demarkasiyası prosesinə başlamaq barədə razılığa gəldik". Paşinyan əldə olunan razılaşmaların həyata keçirilməsi istiqamətində irəliləməyə hazır olduqlarını vurğulayıb.

olduğunu deyib. Yeri gəlmişkən, parlament sədrlərinin VI Ümumdünya Konfransı çərçivəsində Cenevrə şəhərində Milli Məclisin sədri Sahibə Qafarova ilə Ermənistan parlamentinin sədri Alen Simonyanın görüşü nəzərdə tutulur. Bütün bunlar, Cənubi Qafqazda tezliklə sülhə nail olmaq imkanlarını artırır. Lakin Ermənistandakı revanşist qüvvələr bu sülhə mane olmağa çalışır. Müxalifət partiyaları ilə kilsənin birləşərək əldə edilən razılaşmaları pozmaq cəhdi qəbuledilməzdir. Burada müəyyən xarici qüvvələrin sülhü pozmaq planları da mövcuddur. Qarşı tərəf nəzərə almalıdır ki, sülh prosesi pozularsa, itirən Ermənistan olacaq. Ona görə də, kənar təsirlər olmadan, birbaşa dialoq vasitəsilə prosesi irəli aparmaq zəruridir.

# Fintex strategiyası: bank və vətəndaş üçün faydası nə olacaq?

Azərbaycanda "2024-2028-ci illər üzrə fintex strategiyası" hazırlanır. Strategiyada rəqəmsal imkanların genişləndirilməsi, fintex üzrə qabaqcıl dünya alətlərinin ölkəmizdə tətbiqinin genişləndirilməsi, xarici şirkətlərlə bu sahədə əməkdaşlıq, yeni hədəflər öz əksini tapacaq. Qeyd edək ki, mayın 14-də Bakıda keçirilən "Fintex Sammit 2024" (Maliyyə və Texnologiyalar Expo) sammitində Azərbaycanın bank və maliyyə sistemində tətbiq olunan yeni innovativ layihələr və rəqəmsal yeniliklərdən bəhs edilib, ödəniş ekosistemində dair fikir və təcrübə mübadiləsi aparılıb. Eyni zamanda, ölkəmizin fintex platformasında daha fəal yer alması üçün bir sıra həll yolları göstərilib.

## Fintex nədir?

Müasir dünyanın rəqəmsal arxitekturasında mühüm yer tutan fintex maliyyə və texnologiya sahəsində elektron xidmətlərin geniş tətbiqini özündə birləşdirən nəhəng bir sistemdir. "Financial Technologies"in qısaldılmış adı kimi beynəlxalq maliyyə sektorlarında özünə yer tapmış fintex ("FinTech) son illərin ən trend bazar terminlərindən birinə çevrilib. Bu sistem texnologiyaların maliyyə sektoruna inteqrasiya olunması sayəsində maliyyə xidmətlərinin daha rahat, daha təhlükəsiz və daha sürətli həyata keçirilməsinə imkan verən bir innovasiya modeli deməkdir.

Fintex təxminən son 10 ildə qlobal maliyyə sistemində özünü doğruldan və geniş əhatə qazanan vasitə kimi demək olar ki, rəqəmsal dövlət quruculuğunda fəal olan ölkələrin həyatına daxil olub. Bu sistemin əsas funksiyalarından biri bank və maliyyə təşkilatları arasında pul və digər maliyyə alətlərinin qarşılıqlı dövriyyəsini, borc alıb borc verilməsini təmin etməkdir. Ənənəvi bankçılıqda borcalma və borcvermə kimi ən sadə maliyyə əməliyyatları uzun zaman və fiziki olaraq texniki güc sərfinə səbəb olurdusa, fintexdə belə hallar yoxdur, bu sistemin sayəsində bütün maliyyə əməliyyatları asan və sürətli platforma üzərindən həyata keçirilir.

Fintex əsasən bank sektorunun müasir ritmini tənzimləyən vasitə kimi daha çox diqqəti cəlb edir. Burada həm banklar öz aralarında daha asan maliyyə və borc öhdəliklərini yerinə yetirməyə nail olur, kargüzarlıq işi demək olar ki, sıfıra düşür, fiziki xərclər azalır. Eyni zamanda, fintexdə bank müştərilərinin də işçləri rahat və qısa zamanda manesiz həyata keçirilir. Onlar bank filiallarında yorucu və uzun vaxt keçirmir, əməliyyatları fintexin köməyi bir neçə dəqiqədə həll etmiş olurlar. Bu sistemin köməyilə banklarda hesab açmaq, depozit yerləşdirmək, kredit xəttini onlayn formada təmin etmək mümkündür. Müştərilərin bunun üçün banka gedib imza atmağa ehtiyac qalmır, onlar "Asan imza" və "Sima imza" ilə bütün bu əməliyyatları internet üzərindən həyata keçirmək imkanlarına malikdirlər.



Beləliklə, fintex banklar və sahibkarlar, sahibkarların özləri, maliyyə qurumları və biznes təşkilatları və vətəndaşlar arasında maliyyə ünsiyyətinin təmin edən geniş platforma funksiyasını təmin edən rəqəmsal xidmət infrastrukturu kimi Azərbaycanın müasir həyatında yer almaqdadır.

## Fintexin tətbiqi üçün baza və infrastruktur hansı səviyyədədir?

Ölkəmizdə son illərdə elektron bankçılıq və rəqəmsal bankçılıq infrastrukturları üçün möhkəm zəmin yaradılıb. Rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" çərçivəsində ölkədə rəqəmsal xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, "müştəri-bank" münasibətlərinin innovativ texnologiyalar platformasında quraraq daha təhlükəsiz və operativ elektron xidmətlərin son müştəriyə çatdırılması istiqamətində zəruri addımlar atılıb. Ən son rəqəmsal alətlər bank sisteminə inteqrasiya olunub. Son 5 ildə bankaların müasir maliyyə texnologiyalarının tətbiqinə 300 milyon manatdan artıq sərmayələri də məhz bu arxitekuranın möhkəmlənməsinə imkan verib. Mərkəzi Bank tərəfindən müasir ödəniş həllərini ehtiva edən Ani Ödənişlər Sistemi və blokçeyn əsaslı Rəqəmsal İdentifikasiya Sistemi yaradıb, Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq çərçivəsində real şəraitdə yeni fintex məhsul və xidmətlərini sınaqdan keçirməyə imkan verə biləcək xüsusi tənzimləyici sistem hazır vəziyyətə gətirilib. Pilot olaraq fiziki və hüquqi şəxslər üçün məsafədən bank hesablarının açılması funksionallığı tam olaraq rəqəmsallaşdırılıb. Bu sistem fintex üçün əsaslı fiziki və hüquqi baza olmaqla artıq fiziki və hüquqi şəxslərin banka yaxınlaşmadan məsafədən bank xidmətlərini operativ şəkildə əldə etməsinə, bank xidmətlərinə əlçatanlığın təmin olunmasına və məxfiliyinin qorunmasına inkan verir.

Onu da qeyd edək ki, ölkəmizdə fintex- mənimsəyən və tətbiq edən bank və şirkətlərin sayı artıb və hətta fintex sahəsində fəaliyyət göstərən şirkətlərimizdən 5-i digər ölkələrin (Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Pakistan) bazarlarına daxil olub. Bu o deməkdir ki, Azərbaycanın maliyyə sektorunda fintexi tam mənimsəyərək xarici bazar iştirakçıları ilə rəqabətə girə biləcək dayanıqlı maliyyə qurumları formalaşıb.

Hazırda isə Azərbaycanın fintex sistemini daha da inkişaf etdirmək, bu paltformaya qoşulan bütün iştirakçıların fəaliyyətini vahid məkandan idarə etmək, qabaqcıl fintex şirkətləri ilə inteqrasiyasını artırmaq üçün milli strategiyanın hazırlanması zərurəti meydana çıxıb. Bu məqsədlə hazırlanan "2024-2028-ci illər üzrə fintex strategiyası"rərəmsal maliyyə əlçatanlığının asanlaşmasında daha mühüm hüquqi sütun olacaqdır.

**ELBRUS**



# Çin-Azərbaycan: "Yaşıl enerji"nin yaxın müttəfiqləri

Çin Azərbaycanda "yaşıl enerji" layihələrinə xüsusi önəm verir və bu sahəyə sərmayə qoymaq planlarını nəzərdən keçirir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan və Çin arasında bərpa olunan enerji üzrə çoxistiqamətli əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi də buna yaxşı fürsətlər yaradır. Çin şirkətləri ilə birgə fəaliyyətə dair müzakirələr zamanı əldə olunmuş razılaşmalar da bu ölkənin Azərbaycanın "yaşıl enerji" sahəsində yaxından təmsil olunma imkanlarına işarədir. "China Energy Engineering Group Co.Ltd" şirkətinin sədri Song Hailiangin də bunu istisna etməyib və Çin şirkətlərinin Azərbaycanda bərpa olunan enerji potensialının reallaşdırılmasına töhfə vermək niyyətini bəyan edib.

Qeyd edək ki, mayın 14-də Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavini Şen Yueyuenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən iki ölkə arasında əməkdaşlıq perspektivlərindən biri kimi iqlim dəyişiklikləri ilə mübarizə və təmiz ətraf mühit quruculuğunda əlaqələrin birləşdirilməsi, COP29 çərçivəsində Azərbaycanda həyata keçirilən tədbirlərə dəstəyin göstərilməsi və digər məsələlərə də xüsusi diqqət yetirilib. Ölkəmiz COP29 çərçivəsində Çin Xalq Respublikası ilə əməkdaşlığa xüsusi önəm verir və ölkəmizin nümayəndə heyətinin Çinə planlaşdırılan səfəri də bu sahədə birgə səylərin artırılmasına işarə edir. Eyni zamanda, Şen Yueyuen bərpaolunan enerji sahəsində Çin şirkətlərinin Azərbaycan ilə əməkdaşlığa böyük maraq göstərdiklərini bəyan etməklə gələcəkdə qarşılıqlı layihələrin icra olunacağından bəhs edib.

İqtisadiyyat və Energetika nazirliklərində keçirilən görüşlərdə də Çin şirkətlərinin Azərbaycanda "yaşıl enerji" dəhlizləri və interkonnektorlarının yaradılması, "yaşıl enerji"nin ixracı, "yaşıl hidrogen" və "yaşıl ammonyak"ın istehsalı-nəqli, həmçinin enerji saxlanc sistemləri üzrə layihələrə sərmayə qoymaqda maraqlı olması xatırladılıb.

Ötən il iyunun 1-də Energetika Nazirliyi ilə Çinin "China Gezhouba Group Overseas Investment" şirkəti arasında Azərbaycanda 2 qiqavat gücündə bərpaolunan enerji layihələrinin həyata keçirilməsinə dair imzalanmış Anlaşma Memorandumuna əsasən, artıq günəş enerjisi, quruda və dənizdə külək enerjisi, enerji saxlama və inteqrasiya olunmuş ağıllı enerji sistemləri, həmçinin yaşıl hidrogen istehsalının təşkilinə start verilib. Bu sazişin mühüm tərkib hissəsi kimi



230 meqavat gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının inşasında və 2025-ci ildə Mingəçevir şəhərində fəaliyyətə başlayacaq müstəqillik dövrünün ən böyük - 1280 meqavat gücündəki İstilik Elektrik Stansiyasının tikintisində Çinin "Dongfang" şirkətinin iştirakı təmin olunmaqdadır.

2023-cü il oktyabrın 17-də elektrik enerjisi, neft-qaz, neftkimya və bərpaolunan enerji sahələrində əməkdaşlığın inkişafı və enerji layihələrinə investisiyanın təşviqi məqsədilə "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Milli Enerji Administrasiyası arasında Anlaşma Memorandumu" imzalanıb ki, bu sənəd də hər iki ölkənin energetika sektorunda ikitərəfli əlaqələrin genişləndirilməsini, yeni texnologiyaların tətbiqi, enerji infrastrukturunun yenilənməsi üzrə əməkdaşlığı, qarşılıqlı investisiya və biznes fəaliyyətlərinin təşviqini, bərpaolunan enerji mənbələri sahəsində təcrübə mübadiləsini nəzərdə tutur.

Çin şirkətləri azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələrdə də Azərbaycanın əsas tərəfdaşlarından biri olacaq. Bu ərazilər Yaşıl Enerji Zonası elan edilib və enerji tələbatı modelləri hazırlanıb. Həmin strateji yanaşmaya əsasən, Yaşıl Enerji Zonasında enerji istehsalı üçün bir neçə mənbə müəyyən edilib və bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, elektrik nəqliyyat vasitələrindən istifadə, günəş panellərinin qurulması, həmçinin ağıllı enerji texnologiyalarının tətbiqi və idarə olunması sahəsində xarici şirkətlərlə danışıqlar aparılır. Həmin biznes icması arasında Çin şirkətləri də əsas sırada yer alır.

Hazırda Çin bərpa olunan mənbələrdən əldə edilən elektrik enerjisinin istehsalına görə dünyanın lider ölkəsidir və bu göstəriciyə görə ən yaxın rəqibi ABŞ-ı iki dəfə qabaqlayır. 2023-cü ildə Çinin bərpa olunan mənbələrdən elektrik enerjisi istehsalı 1000 giqavatta çatıb ki, bu da ölkənin ümumi generasiya gücü potensialının 43,5 faizi deməkdir. Dünya üzrə bərpa olunan enerji potensialının təxminən 40 faizini məhz Çin təmin edir və 2030-cu ildə bu rəqəmin 44-ə çatacağı gözlənilir. Bu baxımdan Azərbaycanın belə bir ölkə ilə "yaşıl hidrogen" müttəfiqliyi böyük iqtisadi və siyasi imkanların səfərbər olunması deməkdir. Beləliklə, Azərbaycanın müasir gündəliyində yer alan "yaşıl enerji" quruculuğunda ən etibarlı və yaxın müttəfiq kimi Çin şirkətlərinin təmsil olunması ölkəmizin qlobal ticarət sferasında ənənəvi enerji resurslarından "yaşıl enerji" ixracatçısına çevrilməsində güclü dəstək olacaq.

***ELBRUS***

# Dünyada yeni güc mərkəzi

## TDT-nın Aİ ilə birgə fəaliyyət planı



**Türk Dövlətləri Təşkilatı (TDT) ilə ayrı-ayrı beynəlxalq təsisatlar arasında əməkdaşlıq əlaqələri genişlənir. Bu günlərdə qeyd olunan istiqamətdə daha bir addım atılıb. Belə ki, TDT ilə Macarıstanın Xarici İşlər və Beynəlxalq Ticarət Nazirliyi arasında "Birgə fəaliyyət planı" imzalanıb. Sənəd TDT-Avropa İttifaqı (Aİ) əlaqələrinin inkişafına dəstək məqsədi daşıyır. Təşkilatın yazılı açıqlamasında verilən məlumata əsasən, sənəd TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev ilə Macarıstanın xarici işlər və beynəlxalq ticarət naziri Peter Siyartonun görüşü zamanı təsdiqlənib. Görüşdə "Birgə fəaliyyət planı", o cümlədən Macarıstanın Avropa İttifaqına iyul ayında başlayacaq sədrliyi dövründə TDT-Aİ əlaqələrinin inkişafı istiqamətində atılacaq addımlar və Macarıstanda keçirilməsi planlaşdırılan tədbirlər müzakirə olunub. Nazir Macarıstanın TDT və təşkilata üzv ölkələrlə çoxşaxəli əməkdaşlığını daha da gücləndirməkdə qətiyyətli olduğunu bir daha vurğulayıb. Xatırladaq ki, Macarıstan 2018-ci ildən etibarən Türk Dövlətləri Təşkilatının müşahidəçi üzvüdür.**

### Tarixi zərurətdən yaranan və yaxud qüvvələr balansını təmin edən qurum

TDT-nın yaranmasına aparan yol Naxçıvandan başlayıb. 2009-cu ildə Naxçıvanda keçirilmiş Zirvə Görüşündə Azərbaycanın dövlət başçısının təşəbbüsü ilə "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"i imzalanıb və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması üzrə razılığa gəlinib. 12 noyabr 2021-ci il tarixində TDT-nin 8-ci Zirvə Görüşü çərçivəsində təşkilatın adı TDƏŞ-dən TDT-yə dəyişdirilib. Türk Dövlətləri Təşkilatı yarandığı zaman onun dörd üzv ölkəsi - Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan olduğu halda, bu gün artıq təşkilatda beş üzv və üç müşahidəçi ölkə var. Özbəkistan 2019-cu ildə TDT-yə üzv olub. Altı Türk dövlətindən beşi bu təşkilatın üzvüdür, Türkmənistan isə müşahidəçi statusuna malikdir. Macarıstan da müşahidəçi qismində təşkilata qoşulub və təşkilatın Macarıstanda da ofisi fəaliyyət göstərir. 2022-cü ildə isə Şimali Kipr Türk Respublikası (ŞKTR) müşahidəçi statusunda quruma daxil olub.

Türk Dövlətləri Təşkilatının yaradılmasında əsas məqsəd oxşar tarixi-mədəni irsə, ortaq milli-mənəvi dəyərlərə, məişət tərzinə malik olan xalqların birliyini gücləndirmək, siyasi, ticarət və iqtisadi əlaqələrin möhkəmləndirilməsi üçün yeni regional ümumtürk platformasının yaradılması olub. Qurumun fəaliyyət istiqamətləri siyasi dialoq, turizm, iqtisadiyyat, ticarət, gömrük, nəqliyyat, təhsil, gənclər və idman, kənd təsərrüfatı, ədliyyə, miqrasiya, informasiya və s. sahələri əhatə edir. Yaradılarkən xoş məramın əsas götürülməsi və üzv dövlətlər arasında yüzilliklər boyunca formalaşan tarixi bağlar, təbii amillər, cəmiyyətlərin qarşılıqlı rəğbət hissləri, birbirinə yaxınlaşmaq istəkləri bu təşkilatın uzunömürlülüyünə güclü təminatlar verir.

Əslində, dünyanın hazırkı mənzərəsi fonunda Türk dövlətlərinin bir çətir altında birləşmələri tarixi zərurətə çevrilmişdi, desək, yanılmarıq. Məlumdur ki, hazırda beynəlxalq səviyyədə qütbləşmə meylləri güclənib. Nə qədər qəribə görünsə də, XXI əsrdə multikulturalizm ideyaları bir sıra hallarda inkar edilir, millətçilik, irqçilik, etiqad fərqliliyi önə çəkilir. Hazırda dünyanın ayrı-ayrı regionlarında İslamafobiyanın genişlənməsini izləmək acı təəssüf hissi doğurur. Biz qlobal güc mərkəzlərinin selektiv siyasət apardıqlarını, eyni məsələlərə fərqli yanaşmalar sərgilədiklərinin şahidi oluruq. Açıq demək lazımdır ki, ikili yanaşmalardan həm də Türkdilli dövlətlər əziyyət çəkirlər, bir sıra hallarda onlara qarşı açıq-aşkar təzyiq cəhdləri göstərilir. Belə bir şəraitdə Türk dövlətlərinin hansısa saxta, keçici maraqlara deyil, məhz soy-kökdən gələn yaxınlığa istinad etməklə potensiallarını və fəaliyyətlərini əlaqələndirmələri bir zərurət kimi çıxış edirdi. TDT-nın yaranması geniş Türk coğrafiyası ilə dünyadakı ayrı-ayrı güc mərkəzləri arasında qüvvələr balansının tarazlaşdırılmasına geniş imkanlar açır. Zənnimizcə, TDT-nın ən mühüm missiyalarından biri məhz budur. Bu gün TDT dünya miqyasında yeni güc mərkəzi qismində çıxış edir. Qeyd etdiyimiz kimi, Türk birliyinin əsası qoyularkən xoş məram əsas götürülüb. Bu qurumun hansısa bir qara niyyəti, təcavüzkarlıq, nifaq yaratmaq, imperialist siyasət aparmaq məqsədi yoxdur. Təbii ki, milli maraqlarını təmin etmək, müxtəlif mərkəzlərdən gələn ekspansionist cəhdlərin qarşısını almaq da Türk dövlətlərinin haqqıdır. Qurum burada cəmləşən ölkələr arasında əlaqələri gücləndirmək istiqamətində müxtəlif fəaliyyətlər həyata keçirdiyi kimi, digər ölkələrlə və beynəlxalq təşkilatlarla, o cümlədən də Avropa İttifaqı ilə inteqrasiyanın dərinləşdirilməsinə açıqdır. Əlbəttə ki, paritet əsaslarla, qarşılıqlı maraqların təmin edilməsi yolu ilə.



### TDT-nın cəlbediciliyini artıran böyük iqtisadi potensial

Hazırda Avropada və bütün dünyada TDT-də birləşən ölkələrə böyük maraq var. Bu da ilk növbədə Türkdilli ölkələrin malik olduqları zəngin iqtisadi potensialla bağlıdır. 4,5 milyon kvadratmetr coğrafi ərazini əhatə edən geniş Türk coğrafiyasında təxminən 155 milyon əhali yaşayır. Qeyd edək ki, bu coğrafiyada tarixən əhali artımının dinamikası yüksək olub. Azərbaycan və digər Türkdilli ölkələr öz iqtisadiyyatlarını intensiv şəkildə genişləndirirlər. Türkiyə 761.4, Qazaxıstan 181.7, Özbəkistan 57.9, Azərbaycan 48, Türkmənistan 48 və Qırğızıstan 8.5 milyard dollar nominal ÜDM-ə malikdir. TDT-da cəmləşən ölkələr ümumilikdə 1,5 trilyon dollara yaxın nominal ÜDM-ə sahibdirlər. Alıcılıq qabiliyyəti pariteti üzrə isə Türk dövlətlərinin real ÜDM-nin həcmi 4,7 trilyon dollara yaxındır. Bu o anlama gəlir ki, əgər Türk dövlətləri vahid dövlət olsaydılar, onda alıcılıq qabiliyyəti nəzərə alınmaqla ÜDM-in həcminə görə dünyada 7-ci ən böyük ölkə sayılardı.

Bu gün deyə bilərik ki, regionun yeni iqtisadi xəritəsi məhz Türkdilli ölkələrin iştirakı ilə formalaşır. Türk dövlətləri arasında ticarət dövriyyəsi 2022-ci ildəki 33 milyard ABŞ dollarından 2023-cü ildə 42 milyard dollara yüksəlib. Bu, il ərzində 27,3 faiz artım deməkdir. TDT 2021-ci ildə 47, 2022-ci ildə 62 tədbir keçirib. Ötən il isə TDT üzrə müxtəlif istiqamətləri əhatə edən 110-dan çox tədbir baş tutub. Bu tədbirlərdə iqtisadi əməkdaşlığın müxtəlif istiqamətlərdə genişləndirilməsi ilə bağlı aktual müzakirələr aparılıb, potensial imkanlara diqqət çəkilib.

Qeyd etdiyimiz kimi, TDT qurum daxilində olduğu kimi, digər ölkələr və beynəlxalq təşkilatlarla da əlaqələri genişləndirməkdə maraqlıdır. Biz, eyni zamanda, "hazırda dünya, xüsusilə də Aİ məkanı Türkdilli ölkələrlə əməkdaşlığa ehtiyac duyur" fikrini tam qətiyyətlə ifadə edə bilərik. Yaranan geosiyasi reallıqlar fonunda Avropanın enerji təhlükəsizliyinə ciddi təhdidlər yaranıb. Qoca qitə bu sahədə böyük çətinliklərlə üzləşir. Belə şəraitdə, nəzərlər karbohidrogen resursları ilə zəngin olan və ədalətli enerji siyasəti həyata keçirən Azərbaycana və Mərkəzi Asiyada yerləşən Türkdilli ölkələrə yönəlir. Analitiklər bu ehtiyacın illərlə daha da artacağını proqnozlaşdırırlar. Hazırda Avropa "yaşıl enerji" dövrünə keçid edir. Mənbə qismində isə yenə də zəngin potensialla Xəzər sahilindəki Türkdilli ölkələr çıxış edirlər. Biz son vaxtlarda ayrı-ayrı Avropa dövlətlərinin rəsmilərinin və Aİ təmsilçilərinin regiona tez-tez səfərlərə gəldiklərinin şahidi oluruq. Müzakirələr həm də Qazaxıstanın, Özbəkistanın malik olduqları uran və nüvə obyektlərini istismarı üçün son dərəcə gərəkli sayılan digər koponentlərin idxalı ətrafında aparılır.

### Əlverişli coğrafi yerləşmənin yaratdığı üstünlüklər

Türkdilli ölkələrin Avropa üçün önəmini artıran digər mühüm bir amil isə əlverişli coğrafiya və kommunikasiyalarla bağlıdır. Yaranan geosiyasi reallıqlar fonunda nəqliyyat bağlantıları və digər kommunikasiyaların önəmi heç vaxt olmadığı qədər artıb. Avropa ilə Asiya arasında ən qısa və rahat bağlantı isə məhz Türk coğrafiyasından keçir. Azərbaycanın təşəbbüsü və moderatorluğu ilə ərsəyə gələn müasir nəql marşrutları Avropa üçün şaxələndirilmiş təchizat marşrutlarıdır. Bu marşrutlarla Azərbaycanın və digər Türkdilli ölkələrin karbohidrogen ehtiyatları Türkiyə üzərindən Avropaya çatdırılır. Biz yuxarıda Avropanın enerji keçidindən bəhs etdik. Burada yenə də Prezident İlham Əliyevin strateji baxışlarını xatırlamaq lazım gəlir. Artıq dövlətimizin başçısının təşəbbüsü ilə gələcəkdə Aİ məkanının "yaşıl enerji" təchizatı üçün yeni layihənin icrasına start verilib. Söhbət Qara dənizin dibi ilə çəkiləcək kabel xəttindən gedir. Bu marşrutla bərpa olunan mənbələrdən alınan enerji Avropa ölkələrinə ötürüləcək.

Türkdilli ölkələrin digər tərəfdaşlarla qarşılıqlı fəaliyyətləri sayəsində hazırda mühüm nəqliyyat bağlantısı - Transxəzər marşrutu inkişaf etdirlir. Orta Dəhliz kimi tanınan bu marşrut üzrə Türkdilli ölkələrdə, o cümlədən də Azərbaycanda müasir infrastruktur qurulub. Bu marşrut ölkəmizin ərazisində Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinə optimal şəkildə inteqrasiya edilib. Beləliklə, biz Türk coğrafiyasında həm nəql, həm də nəqliyyat xətlərinin şaxələndirldiyinin şahidi oluruq. Gələcəkdə bu şaxələndirmə zəncirinə Zəngəzur Dəhlizi də əlavə olunacaq. Hazırda Azərbaycan bütün Türk dünyasını birləşdirəcək və beləliklə də, tarixi ədalətsizliyə birdəfəlik son qoyacaq Zəngəzur Dəhlizinin açıması məqsədilə israrlı fəaliyyətlər həyata keçirir. Eyni zamanda, Zəngəzur Dəhlizinin yaradılmasına bütün Türkdilli ölkələr güclü siyasi dəstək verirlər.

***Mübariz ABDULLAYEV***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Cəmiyyətlə dövləti birləşdirən qırılmaz bağ!

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti üzrə hazırlanmışdır**

Dövlət və cəmiyyət bir-biri ilə əlaqədə olan anlayışlardır. Bu baxımdan ictimai və dövlət maraqlarının qorunması güclü ölkə olmaq deməkdir. Siyasi kimliyindən, mövqeyindən, dinindən, irqindən asılı olmayaraq, hər kəsin bu maraqları qoruması vətəndaşlıq borcu sayılır. Çünki ictimai və dövlət maraqlarına toxunan ən xırda məsələ belə millətə, ölkəyə, onun suverenliyinə, müstəqilliyinə zərər verə bilir. Bu baxımdan maraqların qorunması hər kəs üçün ən vacib vəzifədir.

Yeri gəlmişkən qeyd edək ki, təkcə ölkə daxilində deyil, ölkə hüdudlarından kənarda yaşayan azərbaycanlılar, həmvətənlərimiz də dövlət maraqlarını, milli maraqları, azərbaycançılıq ideyasını rəhbər tutmalıdırlar. Hətta yetişməkdə olan gənc nəsil də məhz dövlət maraqlarının müdafiəsinə həssas yanaşılması ruhunda tərbiyə edilməlidir. Hər birimiz bilməliyik ki, kimliyindən, hansı peşənin sahibi olmasından, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı ictimai və dövlət maraqlarının qorunması kontekstində üzərinə böyük məsuliyyət düşdüyünü başa düşməli və qəbul etməlidir.

**Bu təmaslar nə qədər çox olarsa...**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov bildirib ki, milli maraq Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, həmçinin insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur: "Bu gün müasir Azərbaycan cəmiyyəti intellektual əsaslarda formalaşmış modern bir cəmiyyət kimi xarakterizə olunur. Azərbaycan cəmiyyəti ictimai maraq və dövlət marağı məfhumlarının mahiyyətini dərk edən, bu mövqeyi ictimai, siyasi münasibətlərdə və dövlətlə əlaqələrində nümayiş etdirməyi bacaran, formalaşmış bir cəmiyyətdir. Xüsusən də dövlət nümayəndələri ilə vətəndaş cəmiyyətinin nümayəndələri arasında təmaslar, qarşılıqlı anlaşma nə qədər çox olarsa, o zaman ortaq maraqlar da bir o qədər artar".

**Aparılan təbliğat bəhrəsini verdi...**

Politoloqun sözlərinə görə, ictimai və dövlət maraqlarının qorunması istiqamətində ölkəmizdə davamlı şəkildə aparılan maarifləndirmə işi, vətənpərvərlik ideologiyasının gənclər arasında təbliğ edilməsi olduqca əhəmiyyətlidir: "Orta məktəbdə, ali təhsil ocaqlarında, digər təlim-tərbiyə müəssisəsində azərbaycançılıq ideologiyasının təbliği, vətənpərvərlik ruhunda gənclərin tərbiyə alması, ictimai və dövlət maraqlarının qorunması barədə kifayət qədər təbliğatın aparılması öz bəhrəsini verdi. Məhz vətənpərvərlik ruhunda tərbiyə alan, ictimai və dövlət maraqlarını üstün tutan Azərbaycan gəncləri vətənimizin ərazi bütövlüyü uğrunda dövlətin ətrafında birləşdi. İctimai və dövlət maraqlarına böyük önəm verilməsi ilə Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsi və uzaqgörənliyi sayəsində qısa zamanda işğala son qoyuldu. Vətəndaşların ictimai və dövlət maraqlarını üstün tutması ilə torpaqlarımız işğaldan azad olundu, ölkəmizin ərazi bütövlüyü təmin edildi. Şahidi olduq ki, ictimai və dövlət maraqlarımızın, milli maraqlarımızın, mənafelərimizin, dəyərlərimizin qorunması yolunda gənclərimiz canından, qanından keçməkdə tərəddüd belə etmədilər".



**Xalq və dövlət birliyinin parlaq nümunəsi**

Z.Məmmədov qeyd edib ki, bu gün Qarabağ iqtisadi rayonunda aparılan yenidənqurma, abadlıq işlərində xalq və dövlət birliyinin ən parlaq nümunəsini görməkdəyik: "Gördüyümüz həmin işlər, əlbəttə ki, ümumi maraqlarımızın, ictimai və dövlət maraqlarının təmin edilməsi, qorunması üçündür. Deməli, ictimai və dövlət maraqlarının qorunmasının gündən-günə aktuallığı, vacibliyi artır. Məhz bu baxımdan da Azərbaycanda ictimai və dövlət maraqları həssaslıqla qorunur və həmin maraqların qorunması diqqət mərkəzindədir".

**Medianın üzərinə də məsuliyyət düşür...**

Politoloqun fikrincə, sözügedən maraqların müdafiəsi və qorunmasında "cəmiyyətin güzgüsü" hesab edilən mətbuat nümayəndələri də məsuliyyət daşıyırlar: "Mətbuat milli maraqların müdafiəsində dövlətin və vətəndaşın müdafiəçisi rolunda çıxış etməlidir. Çünki qlobal informasiya məkanında ölkənin təhlükəsizliyi naminə ictimai və dövlət maraqlarının qorunması zərurəti yaranır. O zaman mediada sözügedən maraqların müdafiəsi məsələsi aktuallaşır. Lakin bu zaman bir sıra məqamlara ciddi şəkildə əməl etmək zərurəti meydana çıxır. Belə ki, mətbuat dövlət və hərbi sirr kateqoriyasına aid məlumatları əks etdirməməli, dövlətçiliyə, onun təhlükəsizliyinə, müstəqilliyinə təhdid xarakterli, cəmiyyətdə təhlükəli tendensiyaya yol açan informasiya yaymamalıdır. İnformasiya eləcə də, cəmiyyətdə sosial, dini, irqi ayrı-seçkiliyi, cinayətkarlığı, terrorçuluğu, hərbi qarşıdurmanı təbliğ etməməlidir. Ölkənin informasiya sahəsində əsas milli maraqları təmin edən məlumatlar qanuni yolla əldə edilməli, hazırlanmalı və yayımlanmalıdır. Bu baxımdan da medianın fəaliyyəti dövlət maraqlarının müdafiəsini zəruri edir".

*Yeganə BAYRAMOVA*

# Azərbaycan,Türkiyə və Türkmənistanın yeni qaz sazişi...

## Azərbaycan Mərkəzi Asiya ilə Avropanı bağlayacaq iqtisadi gücə çevrilir

Məlum olduğu kimi  Bakıda Azərbaycan və Türkiyə arasında təbii qaz sahəsində imzalanan saziş çərçivəsində Türkmənistan qazının Gürcüstan ərazisi ilə Türkiyəyə tədarükü ilə bağlı razılıq əldə olunub. Razılaşmaya əsasən, Türkmənistan qazı Bakı-Tbilisi-Ərzurum və Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) vasitəsilə qardaş ölkəyə nəql olunacaq. Bu saziş 2022-ci il dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan, Türkiyə və Türkmənistanın Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşü çərçivəsində imzalanmış sazişin davamı olmaqla regionda yeni transqaz marşrutunun yaradılmasına hüquqi zəmin verir. Belə ki, Türkmənistanın "Türkmənqaz" Dövlət Konserni, Azərbaycanın Energetika Nazirliyi və Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi tərəfindən imzalanmış "Energetika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı qarşılıqlı anlaşmaya dair Qurumlararası Memorandum" baza sənədi olmaqla sözügedən qaz layihəsinin gerçəkləməsinə yol açır.

**Yeni sazişin hansı əhəmiyyəti və üstünlükləri var?**

İlk növbədə, türkmən qazının Azərbaycan üzərindən Türkiyəyə nəqli geoiqtisadi əhəmiyyət daşımaqla Azərbaycanın tranzit ölkə kimi həm mövqeyini artıracaq, həm də traniz gəlirləri əldə etməsinə səbəb olacaq. Bu layihə Bakı və Ankaranın iqtisadi inteqrasiyasına daha yeni şaxə əlavə etməklə iki ölkənin iqtisadi zəncirlərinin birləşməsində əlavə təhlükəsizlik amilinə çevriləcək.

İkinci bir əsas məqam Türkmənistan-Azərbaycan-Türkiyə enerji ittifaqının formalaşmasıdır. Hər 3 qardaş ölkə bu strateji qərarın gerçəyə çevrilməsi ilə Türk ailəsinin iqtisadi inteqrasiya proqramının əhatəsini daha da genişləndirmiş olacaq.

Üçüncüsü, layihə geosiyasi əhəmiyyət daşımaqla Avropanın enerji təchizatının təhlükəsizliyinə mühüm töhfə verəcək. Yəni, Türkiyə və Azərbaycan faktiki olaraq Türkmənistanı da Avropanın qaz ailəsinə qoşmağa doğru inadlı addımlar atır.

Avropa Birliyi Azərbaycanın müəllifi olduğu Cənub Qaz Dəhlizinə xüsusi üstünlük verir və gələcək etibarlı yanacaq təminatının əsas həlqəsi kimi dəhlizin genişləndirilməsi üzərində səylərini artırmaqdadır. 2030-cu ilə qədər Azərbaycan qazının 20 milyard kubmetrə çatdırılması ilə yanaşı əlavə olaraq TAP kəməri ilə 20-30 milyard kubmetr qazın da axıdılması üzərində iş gedir. Bu plan çərçivəsində Mərkəzi Asiyanın ehtiyatlarının Avropa bazarına çatdırılması istisna deyil.

Türkmənistan qazının Avropaya nəqli üçün Azərbaycanın müəllifi olduğu TAP kəməri və Cənubi Qaz Dəhlizi marşrutu mövcuddur və işləkdir. Qalır türkmən qazını bu dəhlizə cəlb edərək Avropaya çatdırmaq. Bunun üçün hüquqi mexanizm və beynəlxalq sazişlər olmalıdır. Bu beynəlxalq öhdəliyi isə ilk növbədə Azərbaycan və Türkiyə öz üzərinə götürüb.

Avropa İttifaqı ölkələri Rusiya qazının həcmlərinin azaldığını nəzərə alaraq bir neçə enerji mənbəyinə ümid edir ki, onlardan ən rentabelli və perspektivlisi Xəzər regionudur. Xəzər regionu Asiya və Avropanın əsas qaz istehlak bazarlarına daha yaxındır və bu baxımdan Aİ Xəzər dənizinin zəngin qaz ehtiyatlarının tədarükünü daha da tezləşdirməyə çalışır. Bu baxımdan Xəzər regionunun qaz tədarükçüləri olan Türkmənistan, Qazaxıstan, Azərbaycana ehtiyac daha da artır. Xəzərə zəngin yanacaq mənbəyi kimi xüsusi önəm verən Avropa İttifaqı məhz Azərbaycanın liderliyi sayəsində bölgənin digər ölkələrini - Türkmənistan, Özbəkistan, Qazaxıstan və hətta İranın da gələcəkdə Cənub Qaz Dəhlizinə qoşulmasnı və bununla da təkcə bu mənbədən Avropaya illik 100 milyard kubmetrə yaxın qaz nəqlinin əldə olunmasına çalışır.

Yeri gəlmişkən, bir müddət əvvəl Bakıda keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda ABŞ-ın Azərbaycandakı sabiq səfiri Mətyu Brayzənin Şərq-Qərb dəhlizinin növbəti həlqəsi olan Türkmənistanla bağlı sualına cavab verən Prezident İlham Əliyev bildirmişdi ki, bu istiqamətdə  intensiv müzakirələr gedir və Azərbaycan Orta Dəhlizin enerji blokunun marşrutlarını yaratmaqla digər ölkələr, o cümlədən Türkmənistan üçün yaşıl işıq yandırıb.



Avropa İttifaqının enerji üzrə ekspertləri də etiraf edirlər ki, Azərbaycan Mərkəzi Asiya-Xəzər regionun təşəbbüskar və avanqard ölkəsi kimi bölgənin yanacaq resurslarını Qərbə nəqlində daşıyıcı missiyaya malikdir. Son illərin ixrac statistikası və coğrafiyası təsdiqləyir ki, Azərbaycanın Avropaya ötürdüyü enerji resurslarının həm həcmi, həm də alıcı ölkələrin sayı genişlənir. Eyni zamanda, Avropanın qaz təchizatında Azərbaycanın yerləşdiyi Xəzər bölgəsinin əhəmiyyəti, eyni zamanda Xəzərin qaz resurslarının Qərbə nəqlində aparıcı lider ölkə kimi respublikamızın nüfuzu artmaqdadır.

Beləliklə, Azərbaycan və Türkiyə arasında təbii qaz sahəsində imzalanan saziş dolayısı ilə həm də Avropa Birliyinin siyasi və iqtisadi maraqları ilə üst-üstə düşür və Cənub Qaz kəmərinin genişlənməsinə xidmət edir. Xəzər bölgəsinin irihəcmli yanacaq ehtiyatlarının Qərbə daşınmasında isə əsas məsuliyyət yenə də Azərbaycanın üzərinə düşür. Çünki respublikamız təkcə öz ehtiyatlarını deyil, Xəzəryanı ölkələrin də resurslarını Avropaya nəql edə biləcək və Mərkəzi Asiya ilə Avropanı bağlayacaq iqtisadi gücə çevrilib.

*ELBRUS CƏFƏRLİ*




# Fransanın yeni hiyləsi

## Yeni Kaledoniyada konstitusiya "islahatları" kəskin etirazlarla qarşılanıb

**Son vaxtlarda Afrikada və dənizaşırı ərazilərdə Fransanın kolonializm siyasətinə qarşı etirazlar artıb. Getdikcə daha çox müstəmləkə ölkəsində "Rədd ol, Fransa!" şüarları səsləndirilir. Belə ölkələrdən biri də Yeni Kaledoniyadır. Son günlərdə burada artıq permanent hal alan etirazların əhatə dairəsi daha da genişlənib. Artıq Yeni Kaledoniyanın küçələri bir növ döyüş meydanını xatırladır. Yerli kanak xalqı özlərinin bildirdikləri kimi, müstəmləkəçiliyə qarşı son və qəti mübarizəyə qalxıblar. Bu dəfə yerli icmanın səbr kasasını daşdıran isə Fransanın müstəmləkəçilik siyasətinin hüquqi çərçivələrini genişləndirmək məqsədilə konstitusiya dəyişikliklərinə cəhd göstərməsidir. Artıq bununla bağlı Fransa parlamentində müzakirələrə başlanıb. Yeni Kaledoniyada Fransa hakimiyyətinin "konstitusiya islahatları" adı altında prosedurlara başlamasına qarşı kanak xalqının kəskin etirazı beynəlxalq səviyyədə güclü şəkildə dəstəklənir. O cümlədən Bakı Təşəbbüs Qrupu Fransa hakimiyyəti tərəfindən Yeni Kaledoniyada kanakların həbs olunmasına və mülki şəxslərə qarşı zorakılığa dair bəyanat yayıb.**

### Fransanın üzqarası siyasəti - ənənəvi müstəmləkəçiliyin neokolonializmlə əvəzlənməsi

Demokratik ənənələri ilə öyünən Fransanın XXI əsrdə müstəmləkəçiliyi yeni formada, lakin daha ağır şərtlər altında həyata keçirməsinin heç bir izahı yoxdur. Bunun Fransanın üzqarası siyasəti kimi dəyərləndirilməsi daha doğru olardı. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir.

Verilən məlumatlara görə bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Atlantik və Hind Okeanı regionunda, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talayan, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa həmin ərazilərdə insanlıq əleyhinə çoxsaylı cinayətlər törədib, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyub. Fransanın fəal surətdə məşğul olduğu qul ticarəti insanlığın ən utancverici səhifələrindən biridir. Milyonlarla afrikalı Fransanın qul siyasətinin qurbanına çevrilib. Ümumiyyətlə, Fransanın müstəmləkəçilik siyasəti həyata keçirdiyini təsdiqləyən faktların siyahısı çox uzundur. Əlcəzair, Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Benin, Kot-d'İvuar, Mərkəzi Afrika Respublikası, Qabon, Toqo, Kamerun, Vyetnam, Qəmər Adaları İttifaqı, Haiti və digər ölkələrdə bir neçə milyon günahsız insan, o cümlədən qadınlar və uşaqlar Fransa tərəfindən qətlə yetirilib.

### Yeni Kaledoniyada bədnam "konstitusiya islahatları"nın gerçək mahiyyəti

Fransanın neokolonializm siyasətinin təzahürlərindən biri də keçmiş və indiki müstəmləkə ölkələrində yerli əhalinin etnik tərkibinin dəyişdirilməsinə nail olmaqdır. Xüsusilə də Emmanuel Makron hakimiyyəti yerli icmaların milli-dini kimliyinə qarşı açıq "səlib yürüşü"nə çıxıb. Kiçik xalqların mədəniyyətləri, ənənələri gözdən salınır, milli dillər sıxışdırılır, mənəvi dəyərlər məqsədli aşınmalara məruz qoyulur. Fransa hakimiyyətinin Yeni Kaledoniyada bədnam "konstitusiya islahatları"na başlaması da belə çirkin məqsədə xidmət edir. Əslində "islahatlar" son dərəcə mürtəce səciyyə daşıyır. Bu dəyişikliklərin yeganə məqsədi Yeni Kaledoniyada aborigen xalqın hüquqlarını məhdudlaşdırmaq, bunun əksinə olaraq gəlmə fransızların hüquqlarını genişləndirməkdir. Yeni Kaledoniyada etirazların miqyasının geniş olması burada yerli icmanın fəallığı ilə bağlıdır. Fransa hakimiyyəti bunun qarşısını almaq üçün qüvvələr balansını tarazlaşdırmağı hədəfləyib. E.Makron iqtidarı düşünür ki, kanak xalqının mövqelərini zəifətmək üçün gəlmələrə hüquqi müstəvidə yeni imkanlar açılmalıdır. Bu dəfə söhbət onların seçki hüquqlarının tanınmasından gedir.   Səsvermə sisteminin dəyişdirilməsi ilə bağlı Fransa parlamentinin müzakirəsinə çıxarılan qanun layihəsinə görə, 10 il Yeni Kaledoniyada yaşayan Fransa vətəndaşları əyalət seçkilərində səs verə biləcəklər.

Burada deyiblər ki, ayının min oyunu var, bir armudun başında. İndiyədək Fransa müstəmləkələrində möhkəmlənmək üçün bu yerlərə çoxlu sayda Fransa vətəndaşlarının köçürülməsinə nail olub. Onlar müstəmləkə ölkələrində adətən humanitar missiya həyata keçirən və yaxud hansısa sahələrdə mütəxəssis fəaliyyətləri yerinə yetirən şəxslər kimi müvəqqəti qaydada yerləşdiriliblər. Təbii ki, səsvermə hüquqları da tanınmayıb. Ancaq illər ötəndən sonra gəlmələr geri dönməyə tələsməyiblər. Budur , indi Fransa hakimiyyəti onların daimi və tamhüquqlu vətəndaşlığını təsbit etməkdən ötrü Yeni Kaledoniyanın konstitusiyasında dəyişikliklər etməyə qərar verib.



Yeni Kaledoniyada yerli icmaların etirazları qanun layihəsinin Fransa parlamentinin müzakirələrinə təqdim edildiyi andan başlayıb və artıq günlərdir ki, davam edir. Hadisələr zamanı 54 mühafizəçi yaralanıb, 82 nümayişçi saxlanılıb. 200 maşın və 50-dən çox iş yeri yandırılıb. Paytaxt Noumea şəhərində komendant saatı elan edilib.

### Bakı Təşəbbüs Qrupunun kəskin etirazı

Azərbaycan Fransanın işğalçılıq siyasətinin ifşa olunmasında fəal rol oynayır və bu ölkənin işğal etdiyi dənizaşırı ərazilərin kolonializmdən azad olmasına yaxından dəstək verir. Bu istiqamətdə Bakı Təşəbbüs Qrupunun aktiv və məqsədyönlü fəaliyyətlərini xüsusi qeyd edə bilərik. Qurumun  yaydığı bəyanatda bildirilir ki, ictimai toplantıların qadağan edilməsi və müstəqillik tərəfdarlarının həbsi bu məsələnin davamlı həlli hesab edilə bilməz. Fransa Senatı və Milli Assambleyası Yeni Kaledoniyada qanunsuz konstitusiya dəyişikliklərini dayandırmalıdır. Təklif olunan dəyişikliklər məqsədyönlü şəkildə seçki elektoratını qeyri-kanaklar hesabına artırmaq məqsədi daşıyır. Bu da öz növbəsində haqlı olaraq insanların narazılığına, habelə etiraz və nümayişlərinə səbəb olub.

Təəssüf ki, Yeni Kaledoniyada təklif edilən konstitusiya dəyişiklikləri ilə əlaqədar paytaxt Numea şəhərində və ətraf ərazilərdə keçirilən ümumi etirazlardan sonra Fransa təhlükəsizlik qüvvələri səfərbər edilib, komendant saatı tətbiq olunub. Törədilən zorakılıq halları və həbslər bir çox qanunların, o cümlədən insan hüquqlarının, ifadə azadlığının, xüsusən də Fransanın beynəlxalq öhdəliklərinin kobud şəkildə pozulması anlamında qəbul olunur. "Paytaxt Numea şəhərində, həmçinin ətraf ərazilərdə baş vermiş və insan həyatı üçün təhlükə yaradan hadisələr Bakı Təşəbbüs Qrupu olaraq bizi dərindən narahat edir. Hüquq-mühafizə orqanlarının fundamental insan hüquqlarına hörmət etməsi məcburidir. Fransa polisinin etirazçılara qarşı həddən artıq güc tətbiq etməsi bütün vətəndaşların təhlükəsizliyini və ləyaqətini təhdid altına qoyur", - deyə bəyanatda vurğulanıb.

*Mübariz FEYİZLİ*

# “Göyçəyə dönəcəyik!”

*Şahanə MÜŞFİQ*

Qudsal 44 gündən geriyə qalan çox şey oldu-qürur, şəhid xəbərlərinin ruhumuzda yaratdığı göynək, sevinc göz yaşlarıyla kədər göz yaşlarının bir-birinə həyan olması-dolayısı ilə, həyatın özü! Ən əsası isə o günlər xalqımıza əvəzolunmaz yurd vüsalı yaşatdı!

Onlar isə həmişəyaşıl olan ümidlərini bu vüsalla suladılar, Zəfər adlı günəşə doğru bir boy daha ucaltdılar. Onlar Qərbi Azərbaycanın illərdir ki, yurdlarından didərgin düşmüş sakinləridir. Şair, nasir Güldərən Vəli Göyçə mahalının Dərə kəndində anadan olub. İlk dəfə məktəbə o kənddə gedib, təbiətin sehrinə o kənddə qapılıb... Suyundan içib, nemətlərindən dadıb, böyüyüb, şəxsiyyət kimi formalaşıb. İlk şeirini orada yazıb, ilk hekayəsinin qəhrəmanları o kəndin sakinləri olub. İki körpəsini o kənddə qucağına alıb, təbiətin, həyatın çoxçalarlı palitrasına batırdığı xəyal fırçasıyla ümidlərini o kənddə rəngləyib...

**“Basarkeçər rayonunun Dərə kəndi...** Mən kəndimizi xatirələrimdə “Gül Dərə” deyə əzizləyirəm. Mənim adım da kəndimizlə bağlıdır. Atamın anası Dursun nənəm təbiəti çox sevərdi. Hər çiçəyin, otun adını ondan öyrənmişəm, kəndimizin ətrafındakı dağların hər cığırında bələdçim olub. Dursun nənəm kəndimizin güllü-çiçəkli halını o qədər sevib ki, adımı Güldərən qoyub. Kəndimiz bir nağıl idi mənimçün. Hə, oxuduğum bütün nağıllardakı “Gülüstani-İrəm”i heç vaxt təsəvvürümdə canlandırmırdım. Elə gözümü hərləyib kəndimizin dörd yanına baxmaq yetirdi ki, özümü “Gülüstani-İrəm”də hiss edim.

1988-ci ilin noyabrında çıxdıq kəndimizdən. Amma mən xəyalən heç ayrılmadım oradan. Bu gün belə xəyalən hər gün ordayam. “Qatarqaya”nın başında dayanıb ətrafa baxıram tez-tez xəyalımda. “İskəndər ocağı”na doğru addımlayıram. “İskəndər ocağı” qurbanlarımızı kəsdiyimiz, nəzirlərimizi payladığımız yer idi. İndi tez-tez o kəndəbu kəndə su problemləri olduğunu çəkib göstərirlər televizorda. Bizim kəndimiz Göyçə gölünün sahilində idi, bu, ayrı. Amma kəndimizin dörd yanından da bulaqlar qaynayırdı. “Zirincli bulaq”, “Gurbulaq”. “Orucoğlu” kolxoz naxırının yaylaq yeriydi. Başdan-başa lalələrlə örtülən bir dərəmiz vardı, adına “Xınna” deyirdik. Yəni xına... Qoyun sürülərinin yaylaq yerinə “Məntəqə” deyirdik. Çoban comalarının ətrafında quruları çax-çaxların eni-uzunu bir baxışda görünürdü. Göyçədə sanki meşələr də daha sıx, ağaclar daha uzun idi... Ya da mənim həsrətim illərlə içimdə yığılıb, oraları bir ayrıcalaşdırıb, bilmirəm... “Qara quzey” dediyimiz meşədə ağacların dibinə gün işığı düşmürdü. O qədər dərin meşəydi... “Gurbulağ”ın suyu o qədər gur idi ki, “Qara quzey”in yanında şəlaləyə çevrilirdi”.

Güldərən Vəli “Qara quzey”in başındakı düzəngahda 7 rəng çiçək bitdiyini danışanda kövrəldiyini gizlətmir, oradan topladığı 3 solmazçiçəyini hələ də yaylığının arasına büküb saxladığını deyir. Yaş artdıqca zəifləyən yaddaşından şikayətçi olduğunu etiraf edən müsahibim bir şeydən əmindir:

“Heç vaxt solmayan 3 solmazçiçəyi Göyçə ilə bağlı bütün xatirələrimi diri saxlayır. Bir ay əvvəl, bir həftə əvvəl baş verənləri unuduram hərdən, amma Dərə kəndi ilə bağlı heç nəyi, heç kimi unutmuram. Xatirələrim nənəmin mənə öyrətdiyi kilim, gəvə naxışıdır mənimçün. Hər naxışla gələcək nəslə bir gözəllik ötürülür ha, bax elə! Mənim də xatirələrimlə Göyçədə doğulmayan göyçəlilərə Göyçənin göyçək şəkilləri ötürülür. Şəkil demişkən, kəndimizin bütün şəkillərini saxlayıram. Ağ-qara olsalar da, mən hansı ağacın yarpağının açıq-yaşıl və ya tünd-yaşıl olduğunu bilirəm. Barmağımı qoyan kimi deyirəm”.



Şeirlərinin birində “Göyçə dərdim, boyat dərdim” deyən Güldərən Vəli qaçqınlıq həyatının ilk günlərində qələmə aldığı şeirində Göyçəyə qayıtmaq ümidini dilə gətirir:

“Əlvida” demədim, “hələlik” dedim,
O Ulu Göyçəyə dönərik dedim”.



Dərdinə “boyat” deməsini isə belə izah edir:

“Dərd qaldıqca boyatlayır... Elə zənn etmişdim. Yanılmışammış. İndi dərdimi bağrıma basıram, televizorda Qarabağa qayıdan köç karvanlarını seyr edirəm, işə bax ki, ağlamıram. Bir gün o köç maşınlarının üzü Göyçəyə gedəcəyindən əminəm. Bir dəfə Dursun nənəm məni “Nazlı bulağı”na aparmışdı. Bulağa niyə “nazlı” deyildiyini soruşdum. Cavab verdi ki: “Bu bulağın başına həmişə nazənin qızlar gəlir, ona görə”. O bulağın ətrafından quşəppəyi (digər adı yolotu), lilpar, sırğan (gicitkən), yarpız, kəklikotu yığardıq. Həm mövsümündə növbənöv yeməklər hazırlayardıq bu bitkilərdən, həm də qurudub qışa saxlayardıq. İndi də bazardan quşəppəyi, sırğan, kəkotu alıram, amma dad o dad deyil. Göyçədə hər şey bir ayrı cür dadırdı...”

Güldərən xanım erməni xislətinin mənfurluğunun şahidinə çevrildiyi anları da tez-tez xatırlayır, ermənilərin bizə qarşı olan düşmən münasibətinin həmişə olduğunu deyir:

“Diplomumu alandan sonra atamla getdik rayon mərkəzinə. Bütün idarələrdə rəhbər vəzifələrdə ermənilər işləyirdilər. Çox az azərbaycanlı tapılardı o idarələrdə, onlar da ən kiçik işlərdə işləyirdilər. “Əmək təlimi” müəllimi olmaqçün müraciət etmişdim. Amma məni işə götürmədilər. Harada boş yer vardısa, oraya bir erməni göndərirdilər.

Məsələn, kəndimizdə komsomol təşkilatına adam lazım idi. Kəndimizin cavanları da, maşallah, hamısı ağıllı-kamallı, bacarıqlı oğlanlar idilər. Heç birini işə götürmədilər, həradansa Xaçik adlı bir erməni gətirib qoydular. Ermənilər də ki, harada əllərinə fürsət keçdi, bizə zülm edirdilər. Tütün idi təsərrüfatımız. Təhvilvermə məntəqəsi vardı, aparıb təhvil verirdik. Orada çərçivələri sayıb təhvil götürürdülər. Ermənilər bizimkilərin üstünə qışqırır, qəsdən sayı az yazırdılar ki, əmək haqqı az yazılsın. Öz göyçəlimiz vardı, Qızıl Temir deyirdik ona. Əgər Qızıl Temir orda olsa, çəkinirdilər, bizim tütünümüzü düzgün sayırdılar. Qızıl Temir olmasa, ermənilər bacardıqları qədər qışqırır, pisikdirir, əməyimizi heçə sayırdılar. Bağ-bağatımızın məhsulunu almağa gələndə bacardıqca aşağı qiymətlə alırdılar. Yazıq kəndli də neyləsin? Meyvədir, qaldıqca xarab olur, məcburdu ki, mövsümündə satsın. Ermənilər o meyvənin də pulunu düzgün hesablayıb vermirdilər. Bu kimi çox şeyi sadalamaq olar... Qorxaq idilər, düzdür, amma atalar dediyi kimi, “dərə xəlvət olanda tülkü bəy olur”. Min şükür ki, “Vətən müharibəsi”ndə tülkünün bəyliyi sona çatdı, aslanın əzmini bir daha gördülər! Bir gün aslan Azərbaycan oğulları Göyçəni də azad edəcək. O günü gözləyirəm!”

# Avtomobil parkı “yaşıllaşdırılır”...

## “Avro-5” normativlərinə cavab verməyən maşınların istifadəsi dayandırılacaq

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsində əks olunmuş tədbirlərdən biri də Azərbaycanda avtomobil parkının daha təmiz enerjiyə keçidinin təmin olunması, “yaşıllaşdırılması”dır. Həmin sənəddə Azərbaycana idxal olunan avtonəqliyyat vasitələrində “Avro-5” və daha yüksək ekoloji standartların tətbiqi üçün zəruri və təxirəsalınmaz addımların atılması nəzərdə tutulub. Bu məqsədlə hökumətin müvafiq aidiyyatı qurumları tərəfindən sentyabrın 1-dək tədbirlər planı hazırlanacaq.

**Avtomobil parkında vəziyyət necədir?**

2024-cü il yanvarın 1-ə olan məlumata əsasən, ölkəmizdə dövlət qeydiyyatına alınmış 1 milyon 774 min 77 nəqliyyat vasitəsindən istehsal ili 10 ilədək olanların sayı 266 878-dir. Bu da təxmin Azərbaycanda olan avtomobillərin 15 faizi deməkdir. 10 ildən 20 ilədək olanların sayı 707 min 623-dür. Bu da dövlət qeydiyyatına alınmış avtomobillərin 39,9 faizini təşkil edir. 20 və ondan qabaqkı istehsal tarixi olan maşınların sayı isə 799 min ədəddir. Bu da avtomobillərin 45,1 faizi deməkdir. İlin əvvəlinə ölkədə hibrid avtomobillərin sayı 42 min 461, elektrik mühərrikli avtomobillərin sayı isə 3 min 138-dir.

“Yaşıl tövsiyə”lərə əsasən, həmçinin, ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi planlaşdırılır. Bu plana əsasən, ölkədə maşın sənayesinin elektromobillik strategiyasına uyğunluğu üçün zəruri addımların atılması nəzərdə tutulur. Bu isə o deməkdir ki, hökumət həm ekoloji baxımdan yararsız avtomobillərin idxalını və istifadəsini məhdudlaşdırmaqla yanaşı, həm də avtomobil sənayesi üçün nəzərdə tutulan yanacağın keyfiyyətini də yaxşılaşdırmaq, eyni zamanda maşınlarda ənənəvi enerjidən istifadəni azaltmaq və elektromobilə daha çox üstünlük vermək üçün kompeks işlər görməlidir. Bu strategiyaya əsasən, ölkəyə elektriklə işləyən avtomobil idxalını təşviq etmək, idxalda gömrük-vergi güzəştlərinin əhatəsini artırmaq, həmçinin ölkənin özündə elektromobillərin istehsalını stimullaşdırmaq nəzərdə tutulur. Bu ssenari üzrə təkliflər hazırlanacaq. Birincisi, dövlət tərəfindən elektomobil istehsalına subsidiyaların verilməsidir. İkincisi, dövlət-özəl tərəfdaşlığı və özəl investisiya ilə idarə olunan əməliyyatların tətbiqi yolu ilə rəqabətqabiliyyətli elektromaşın sənayesinin formalaşdırılmasıdır.



Azərbaycan hökuməti ölkədə avtomobil sənayesi parkını tamamilə “yaşıllaşdırmaq”da israrlıdır və bu məqsədlə ekoloji cəhətdən daha sərfəli olan maşınların istifadəsini təmin edən ardıcıl addımlar atılır.

Bu siyasətin mühüm tərkib hissəsi kimi ölkənin maşın bazarının tamamilə “Avro-5” ekoloji standartlarına uyğunluğunun başa çatdırılmasıdır. Avropa Birliyi ölkələrində 2009-cu ildən tətbiq olunan “Avro-5” normativləri bir neçə ildir ki, ölkəmizin sənaye və yanacaq istehlakı sahələrində də prioritet istiqamətlər kimi diqqətdə saxlanılmaqla əsaslı işlərin görülməsi ilə müşayiət olunmaqdadır. Belə ki, Neft Emalı müəssisələrində istehsal oluna avtomobil və dizel yanacağının tamamilə həmin normativlərə uyğunlaşdırılması təmin edilib, havanın keyfiyyətini yaxşılaşdırmaq məqsədilə Azərbaycan özünün “Aİ-95” markalı benzin istehsalını yaradıb.

Qeyd edək ki, “Avro-5” avtomobilin işlənmiş qazlarındakı zərərli maddələrin tərkibini tənzimləyən ekoloji standartdır və təmiz ekoloji mühitin təmin edilməsində beynəlxalq miqyasda qarşıya qoyulmuş tələblərdən biridir.

“Avro-5” standartlı yanacağın istifadəsi avtomobilin işlənmiş qazının tüstüsünü azaldır və yanma məhsullarının (bərk hissəciklər, azot oksidləri, karbonmonoksit, yanmamış karbohidrogenlər) ətraf mühitə tullanmasını kifayət qədər azaldır. Bu standartda yanacağın maksimal dərəcədə yanması təmin edilir və mühərrikdə və yanacaq sistemində səs-küy və vibrasiya azalır, korroziya ehtimalı aşağı düşür, mühərriki işə salmağı asanlaşdırır. Yanacaq istehlakı azaldılır və avadanlığın ömrü uzanır.

Ən əsası isə bu standartların tətbiqi sayəsində ətraf mühitə atılan zərərli maddələrin həcmi əhəmiyyətli dərəcədə azalmış olur. Ona görə də “yaşıl iqtisadiyyat” quruculuğunda qətiyyətli iradə ortaya qoymuş hökumətin daha təmiz enerji və “yaşıl ətraf mühit” strategiyasına əsaslanmaqla avtomobillərin də “yaşıllaşdırılması” xüsusi önəm verəcəyi diqqətdən qaçmamalıdır.



Qeyd edək ki, Nazirlər Kabinetinin martın 28-də qəbul etdiyi qərara əsasən şəhər nəqliyyatında avtomobil parkının yenilənməsi, ələlxüsus da taksi minik avtomobillərinin “Avro-5” ekoloji standartına uyğunlaşdırılması barədə tələblər müəyyənləşib. NK-nın “Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər” sənədinə əsasən, yaşı 10 ildən çox olan minik avtomobillərinin Azərbaycan ərazisinə gətirilməsi məhdudlaşdırılacaq. Həmçinin, iyunun 1-dən etibarən dövlət qeydiyyat şəhadətnaməsində göstərilən buraxılış tarixindən 8 ildən artıq müddət keçmiş avtonəqliyyat vasitəsinə “Avtomobil nəqliyyatı haqqında” qanunla müəyyən edilən buraxılış kartı verilməyəcək.

Həmçinin, dövlət qeydiyyat şəhadətnaməsində göstərilən buraxılış tarixindən 15 ildən artıq müddət keçən avtomobil nəqliyyatı vasitələri taksi minik avtomobilləri ilə sərnişin daşımalarında istifadə oluna bilməz. Məqsəd insanların həyat və sağlamlığının, ətraf mühitin qorunması, avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrin miqdarının azaldılması və ekoloji vəziyyətin yaxşılaşdırılmasına dəstək olmaq, ölkənin avtomobil parkının “yaşıllaşdırılması”na nail olmaqdır.

Bunlar hələlik ilk tələblərdir, qarşıda da ciddi tələb və standartlar var. Söhbət “Avro-6” ekoloji standartına keçidin təmin edilməsidir. “Yaşıl dünya” koalisiyasında fəal mövqe nümayiş etdirən Azərbaycan bu normativlərin də tətbiqində israrlıdır və COP stratefiyasının əsas fəlsəfəsi də məhz ətraf mühitə buraxılan zərərli yanacaq emissiyalarının azaldılmasıdır. Bu baxımdan həmin strateji öhdəliklərə məsuliyyətlə riayət edən Azərbaycan daha təmiz nəqliyyat növlərinin təşviqi ilə bağlı çağırışların öhdəsindən gəlmək üçün beynəlxalq koalisiya ilə birlikdə hərəkət etməkdədir. Bu çağırışların növbəti mərhələsi isə avtomobillərin “Avro-6” və “Avro-7” standartına keçidinin təmin edilməsindən ibarət olacaq.

***E.CƏFƏRLİ***

# Kibertəhlükəsizliklə mübarizə...

*Yeganə BAYRAMOVA*

## Vətəndaşlar nələrə diqqət etməlidir?

Son illər internet və sosial media istifadəsinin ciddi dərəcə artması ilə hər keçən gün rəqəmsal dünya həyatımıza daha çox daxil olur. Lakin sosial şəbəkələrin və proqram təminatlarının rəqəmsal hücumlardan qorunması da günümüzdə vacib və aktual məsələdir. Bunun üçün kibertəhlükəsizlik tədbirlərinin həyata keçirilməsinə xüsusi ehtiyac var.

Qeyd edək ki, kibertəhlükəsizlik müasir dünyada nisbətən yeni sahədir. Hazırda kibercinayətkarlar texniki vasitə ilə yox, daha çox dələduzluq yolu ilə insanların özlərindən informasiyalar alırlar.

Vətəndaşlarımızın kiber cinayətlərə məruz qalma riskləri də gündən-günə artır. Belə ki, son günlər kiber cinayətkarlar müxtəlif üsullara əl atırlar. Bununla bağlı Daxili İşlər Nazirliyi (DİN) də davamlı məlumat yayır. Nazirliyin mətbuat xidmətindən bildirilib ki, sosial şəbəkələrdə şübhə doğurmayacaq formada cinayətkar fəaliyyət var. Ona görə də, vətəndaşlara kiberusulla hazırlanan nömrələrdən daxil olan şübhəli zənglərə, mesajlara qarşı tədbirli olmaq, danışmadan, yazışmadan həmin nömrələri bloklamaq barədə xəbərdarlıq edilib.

**1 gündə baş verən hadisələr...**

DİN-nin mətbuat xidmətinin rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev son günlər vətəndaşlarımızın qarşılaşdığı kibercinayətkarlıq faktlarını sadalayıb: “Sizinlə danışan, yazışan Azərbaycan dilində sərbəst danışan xarici vətəndaş, hətta azərbaycanlı da ola bilər. O da ola bilər ki, həmin şəxs sizin haqqınızda tam məlumatlıdır, çünki barənizdə həmin məlumatları sosial şəbəkə üzərində olan qeydlərdən, yaxud dostlarınızdan, qohumlarınızdan götürüb.

Kibercinayətkarlıq-talamalar tək oğurluq əməllərini əhatə etmir. Sosial şəbəkələrdə dələduzluq halları da geniş vüsət alıb. Onlarla vətəndaş dələduzluq hallarının qurbanı olub. Təkcə mayın 13-də baş verən hadisələrə baxaq: Ayrı-ayrı vətəndaşlara məxsus bank kartlarından aldatma üsulu ilə 9 min, 8 min 485, 370, 425, 1482, 350, 165, 1420, 165, 140, 3 min, 150, 350, 600, 3100, 360, 2700, 50, 25, 700, 2181 manat, 471 və 1850 ABŞ dolları məbləğində pul vəsaitləri talanıb.

Faktların təhlili göstərir ki, vətəndaşlar instaqram, teleqram, feysbuk, tik-tokda səhifə, kanal və platformalar üzərindən əlavə gəlir qazanmaq, sığorta ödənişləri, turist səyahətləri, mebel sifarişi, qızıl satışı, ev-alqı satqısı, kirayə, kredit adı altında verilən yalan vədlərə inanaraq həmin təklif olunan məbləğləri başqa-başqa bank hesablarına köçürüblər. Sonradan həmin hesablar, linklər, telefon nömrələri dərhal qapadılıb”.



**Vətəndaşların özləri informasiyanı verirlər...**

Texnobloqer Fərdi Pərdəşünas “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, bu gün ölkəmizdə kibertəhlükəsizliyin təmin olunması üçün qanunvericilik bazasına nəzər salanda kifayət qədər qanunvericilik bazasının olduğu görünür: “Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Texnologiyalar Nazirliyi yanında elektron təhlükəsizlik xidmətinin vətəndaşların kibertəhlükəsizliyinin qorunması məsələsi ilə bağlı fəaliyyəti var. Yəni, bir neçə qurum bu məsələ üzrə təhmin olunub və işləri aparırlar. Lakin bizim müasir dövrdə son illərdə gördüyümüz məsələlər texniki kiberhücumlar olmadığına görə bu dövlət qurumlarının bu növ kiberdələduzluq hücumlarında rolunun az olduğunu görürük. Səbəb isə ondan ibarətdir ki, artıq texnologiyalar yaxşı bir səviyyədə o qədər inkişaf edib ki, kibercinayətkarlar adətən texniki müdaxilələr vasitəsilə yox, dələduzluq metodları ilə insanların özlərindən informasiya alırlar. Burada da təhlükəsizliyimizi təmin edən platformalar oyundan kənarda qalırlar. Çünki burada vətəndaşın özü kiberdələduza aldanaraq öz məlumatlarını təqdim edir”.

**Operativlik artırılmalıdır...**

Ekspertin sözlərinə görə, Azərbaycanda kibertəhlükəsizlik sahəsində işlərin gücləndirilməsi üçün əsas atılmalı olan addım operativ işlərin artırılmasıdır: “Düşünürəm ki, mövcud infrastrukturumuz və mövcud qanunvericilik bazası kibertəhlükəsizliyin təmin olunmasına imkan verir. Sadəcə burada operativ işləri bir az artırmaq, qaynar xəttin əməkdaşlarını genişləndirmək, daha çox zənglər qəbul eləmək və “piar promotion” dediyimiz bu qurumların insanlara çatdırılmasını təmin eləməkdir. Yəni insanlar xəbərdar olsun ki, başlarına belə hadisə gələndə kimə müraciət eləmək lazımdır”.

**Kibergigiyenik qaydalar öyrənilməlidir...**

F.Pərdəşünas kibertəhlükəsizliklə bağlı maarifləndirmə prosesinin də gücləndirilməli olduğunu vurğulayıb: “Maarifləndirmə prosesi nəyə görə lazımdır? Çünki bayaq da dediyim kimi bizə gələn hücumlar texniki hücumlar deyil. Yəni bu hücumların qarşısını nə dövlət qurumları ala bilir, nə özəl təşkilatlar ala bilir. Bizə lazım olan insanların kibergigiyenik qaydalar dediyimiz qaydaları öyrənməsidir. Buna görə də qurumların birinci məsuliyyəti məhz insanlara kibergigiyenik qaydalarını öyrətməkdir. Müxtəlif televiziya , radio, internet resursları vasitəsilə kibergigiyenik qaydalardan insanları xəbərdar etmək lazımdır. İnsan sosial şəbəkədə qeydiyyatdan keçən zaman ikimərhələli təsdiqi aktivləşdirə bilər. Sosial şəbəkədə qeydiyyatdan keçən zaman, məsələn, nəyə diqqət eləmək lazımdır. Fişinq nədir, vişinq nədir, smişinq nədir. İnsanlar bu hücum növlərindən yavaş-yavaş agah olsalar, kiberdələduzluq nümunələri ilə tez- tez tanış olsalar, artıq onlarda bir fikir yaranacaq. Onlar qarşılarına çıxan hadisəni görəndə artıq onun qurbanına çevrilməyəcək”.

Kibertəhlükəsizliyin etibarlı təmin edilməsi dövlətin təkbaşına imkanları xaricindədir, bu problemin həlli bütün maraqlı tərəflərin- dövlətin, özəl sektorun və vətəndaşların tərəfdaşlığını və əməkdaşlığını tələb edir.

# BVF: Süni intellekt qlobal əmək bazarında sunami effekti yaradacaq



Beynəlxalq Valyuta Fondunun (BVF) icraçı direktoru Kristalina Georgieva süni intellektin (AI) qlobal əmək bazarına təsirini “sunami” ilə müqayisə edib. Sürixdə bir tədbirdə çıxış edən Georgieva süni intellektin bütün dünyada iş yerlərinin əhəmiyyətli bir hissəsini yox etməyə hazır olduğunu, qabaqcıl iqtisadiyyatların qarşıdakı iki il ərzində 60 faiz və dünyanın qalan hissəsi üçün hələ də əhəmiyyətli dərəcədə 40 faiz təsirlə üzləşəcəyi barədə xəbərdarlıq edib. AZƏRTAC bu barədə “Reuters” agentliyinə istinadla xəbər verir.

Sürix Universiteti ilə əlaqəli İsveçrə Beynəlxalq Tədqiqatlar İnstitutunun təşkil etdiyi toplantıda çıxış edən Georgieva vurğulayıb: “İnsanları, müəssisələri buna hazırlamağa çox az vaxtımız var”. O, bu gözlənilən texnoloji “sunami” dalğasının nəticələrini yumşaltmaq üçün qabaqlayıcı tədbirlərə təcili ehtiyac olduğunu bildirib. Georgieva əlavə edib ki, düzgün idarə olunarsa, süni intellektin məhsuldarlığı artırmaq potensialı var, eyni zamanda, dezinformasiyanın yayılması və sosial bərabərsizliklərin kəskinləşməsi riskləri də ciddi problemlərdir.

BVF rəhbərinin bədbin proqnozu son illərdə qlobal iqtisadiyyatın şoklara qarşı həssaslığının artması fonunda əmək bazarından da kənara çıxıb. Georgieva 2020-ci ilin COVID-19 pandemiyasını və Ukraynada davam edən münaqişəni bariz nümunə kimi göstərib. Xarici təzyiqlərə qarşı bu həssaslığa baxmayaraq, o, yaxınlaşan qlobal tənəzzül qorxusunu aradan qaldıraraq, dünya iqtisadiyyatının indiyə qədər nümayiş etdirdiyi diqqətəlayiq dayanıqlığı da qeyd edib.

Dünya iqtisadiyyatının qlobal tənəzzül keçirmədiyi faktını diqqətə çatdıran Georgieva tədbir zamanı ekspertlərin bu məsələ üzrə narahatlıqları ilə razılaşmayıb. O, bu dayanıqlığın sübutu kimi bir çox regionlarda inflyasiya təzyiqlərinin tədricən azalmasına işarə edib. Bununla belə, Georgievanın iddiaları tam nikbin deyildi, çünki o, ekoloji problemlər və inkişaf etməkdə olan qlobal borc yüklərinin azaldılması ilə bağlı qətiyyətli addımların atılmasını müdafiə edən iqlim dəyişikliyi tərəfdarlarının arqumentləri ilə qarşılaşıb.

# Günəşdə son on il ərzində ən güclü partlayış olub

Birləşmiş Ştatların Elmi və Tənzimləyici Agentliyinin məlumatına görə, mayın 14-də Günəşdə son on ilin ən böyük partlayışı baş verib.



AZƏRTAC CNN telekanalına istinadla xəbər verir ki, Amerika Milli Okean və Atmosfer Administrasiyası (NOAA) nəzdində fəaliyyət göstərən Kosmik Hava Proqnozları Mərkəzi “X” sosial platformasında bildirib ki, Günəşdən yayılan alov dalğası indiyə qədər qeydə alınan 17-ci ən böyük partlayışdır. Mərkəz xəbərdarlıq edib ki, bəzi radio ötürücülər və oxşar texniki avadanlıqlar gücü məsələdən təsirlənə bilər.

Alov püskürməsi gecə saat 1 radələrində baş verib və ən güclü növ olan “X” sinifli partlayış kimi qiymətləndirilib. Günəş alovları enerjili partlayışlardır və radio siqnallarının dəqiqələr, hətta saatlar ərzində kəsilməsinə səbəb ola bilər. Onlar “A” sinfindən “X” sinfinə qədər təsnif edilir, hər bir sinif öz kateqoriyasında 1-dən 9-a qədər ölçülür. Mayın 14-də baş verən və güclü elektromaqnit qasırğası yaradan partlayışın 9-cu dərəcəyə aid olduğu bildirilir.

# Rusiyanın yeni hökuməti təsdiqləndi...

## Kabinet yeni prosedura əsasən ilk dəfə formalaşdırılıb



Rusiyanın Nazirlər Kabineti yeni formatda təsdiq edilib. Belə ki, hökumət 2020-ci ildə konstitusiyaya edilən dəyişikliklə nəzərdə tutulan yeni prosedura əsasən ilk dəfə formalaşdırılıb. Mart ayında baş tutan prezident seçkilərində yüksək səs faizi ilə qələbə qazanan Vladmir Putin mayın 10-da Mixail Mişustini hökumət başçısı kimi təsdiq etmişdi. Ardından Baş nazir tərəfindən prezidentə federal icra orqanlarının strukturu ilə bağlı təkliflər təqdim olunmuşdu. İki gün öncə isə yeni nazirlər və baş nazirin müavinləri təsdiqlənib. Bununla bağlı Rusiyanın dövlət başçısının müvafiq sərəncamları dərc olunub.

**Beş nazir Prezidentə hesabat verəcək**

Qeyd edildiyi kimi, Rusiya hökuməti ilk dəfə olaraq 2020-ci ildə konstitusiyaya edilən dəyişikliklə nəzərdə tutulan yeni prosedura əsasən formalaşıb. Bütün namizədlər əvvəllər parlamentdə nəzərdən keçirilib və təsdiq edilib. Yeni qaydalara əsasən Dövlət Duması və ya Federasiya Şurası tərəfindən təsdiq edilən namizədlər mütləq şəkildə kabinetdə təmsil olunur. Konstitusiya dəyişikliyinə əsasən Prezdent bu namizədləri təsdiq etməlidir.

Yeni kabinetin tərkibinə hökumət başçısından əlavə 10 baş nazirin müavini və 21 nazir daxildir. Nazirliklərin sayı və adı əvvəlki illərdəki tərkiblə müqayisədə dəyişməyib. Hökumətin əsas gücü sayılan beş nazir yenə də birbaşa prezidentə hesabat verəcək - bunlar Daxili İşlər, Xarici İşlər, Müdafiə, Fövqəladə Hallar və Ədliyyə nazirliklərinin rəhbərləridir. Digər kabinet üzvlərinin fəaliyyətinə isə hökumətin başçısı cavabdehlik daşıyır.

**Xidmət rəisləri dəyişmədi...**

Vladimir Putinin təsdiqlədiyi siyahıda Baş nazirin müavinləri və nazirlərlə yanaşı, federal xidmətlərin rəhbərlərinin adları da qeyd edilib. Dövlət başçısı Federasiya Şurasında aparılan məsləhətləşmələrin ardından federal xidmətlərin direktorlarının təyinatını həyata keçirib. Gözlənildiyi kimi, Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru vəzifəsinə yenidən Sergey Narışkin təyinat alıb. 2016-cı ilin sentyabrından xidmətə rəhbərlik edən Narışkin Rusiya güc strukturlarının ən mühüm simalarından sayılır. Bu vəzifəyə təyin edilənə qədər isə Narışkin hakim "Vahid Rusiya" partiyasının deputatı kimi fəaliyyət göstərib.

2008-ci ildən Rusiya FTX-nin direktoru, Milli Antiterror Komitəsinin sədri, eyni zamanda Rusiya Federasiyası Təhlükəsizlik Şurasının daimi üzvü olan ordu generalı Aleksandr Bortnikov da vəzifəsinin icrasını davam etdirəcək.

FSO-nun rəhbəri də dəyişməyib - ordu generalı Dmitri Koçnev 2016-cı ildən icra etdiyi vəzifəsində saxlanılıb. Prezidentin Xüsusi Proqramlar Baş İdarəsinin rəisi vəzifəsini isə Aleksandr Linets davam etdirəcək.

**Nazirlərin 13 faizi dəyişdi**

Xidmət rəislərindən fərqli olaraq Nazirlər Kabinetinin tərkibində dəiyişikliklər gözə çarpmaqdadır - belə ki, hökumət üzvlərinin 13 faizi dəyişib. Kabineti "tərk edənlər" arasında Baş nazirin müavini statusunda ətraf mühitə və aqrar-sənaye kompleksinə cavabdehlik daşıyan Viktoriya Abramçenko, Müdafiə Nazirliyindən Təhlükəsizlik Şurasının katibliyinə keçirilən Sergey Şoyqu, Energetika naziri Nikolay Şulqinov və İdman naziri Oleq Matıçin adları yer alıb. Nazir kürsüsünü təhvil verənlərlə yanaşı, yeni kabinetdə fərqli vəzifələrə təyin olunan kadrlar da var - keçmiş kənd təsərrüfatı naziri Dmitri Patruşev və keçmiş nəqliyyat naziri Vitali Savelyev artıq gələcək fəaliyyətlərini Baş nazirin müavini statusunda davam etdirəcəklər. Son 4 ildə Baş nazirin birinci müavini vəzifəsində çalışan Andrey Belousov isə artıq Rusiya müdafiə naziri kimi təsdiqlənib. Onun keçmiş vəzifəsi isə Baş nazirin müavini və keçmiş sənaye və ticarət naziri Denis Manturova tapşırılıb.

**4 qubernator nazir oldu...**

Yeni kabinetdə vakant yerlərə bir neçə vilayətin qubernatoru təyinat alıb. Belə ki, Kalininqrad vilayətinin keçmiş rəhbəri Anton Əlixanov artıq Sənaye və Ticarət Nazirliyinə rəhbərlik edəcək. Əslən Abxaziyadan olan Əlixanov 2015-ci ildən etibarən Kalininqrad vilayətində bir sıra məsul vəzifələrdə çalışıb. 2017-ci ildən isə vilayət qubernatoru təyin edilib. O həm də, "Vahid Rusiya" Partiyasının Ali Şurasının üzvüdür.

Xabarovsk vilayətinin keçmiş qubernatoru Mixail Deqtyarev isə bundan sonra İdman Nazirliyinə başçılıq edəcək. 2021-ci ildən qubernator olan Deqtyarev həm də VI və VII çağırış Dövlət Dumasının üzvü olub.

Kursk vilayətinin başçısı Roman Starovoyt isə kabinetdə boşalan Nəqliyyat Nazirliyinə təyinat alıb. 1972-ci ildə Kurskda anadan olan yeni nazir 2019-cu ildən vilayət qubernatoru təyin edilib.

Kuzbas vilayətinin keçmiş qubernatoru Sergey Çivilev isə Energetika Nazirliyinə rəhbər təyin olunub. Sonuncu vəzifəsində 2018-ci ildən işləyən Çivilev Rusiyanın ən tanınmış qubernatorlarından hesab edilir.

Kənd Təsərrüfatı Nazirliyinə isə son 3 ildə nazirlikdə birinci müavin postunu tutmuş Oksana Lut rəhbərlik edəcək.

**Yeni kabinet üzvləri Putini müşayiət edəcək...**

Baş nazirin müavinlərinin beşi öz vəzifəsində saxlanılıb. Belə ki, Baş nazirin müavinləri Tatyana Qolikova, Aleksandr Novak, Aleksey Overçuk, Marat Xusnullin və Dmitri Çernışenko yenə də vəzifələrinin icrasını davam etdirəcəklər. Nazirlər Kabineti rəhbərinin müavini - Aparat rəhbəri Dmitri Qriqorenko və Baş nazirin müavini - Prezidentin Uzaq Şərq Federal Dairəsi üzrə səlahiyyətli nümayəndəsi Yuri Trutnev də vəzifəsində saxlanılan şəxslər arasında yer alıblar.

Ondan başqa Xarici İşlər Nazirliyinə yenidən Sergey Lavrov, Maliyyə Nazirliyinə Anton Siluanov, İqtisadi İnkişaf Nazirliyinə isə Maksim Reşetnikov rəhbərlik edəcək. Eləcə də, Təbii Sərvətlər, Əmək, Təhsil və Elm və Ali Təhsil nazirliklərinə də müvafiq olaraq Aleksandr Kozlov, Anton Kotyakov, Sergey Kravtsov və Valeri Falkov rəhbərliklərini davam etdirəcəklər. Yeni kabinetdə Daxili İşlər, Fövqəladə Hallar, Ədliyyə nazirliklərinin rəhbərləri də dəyişməyib - bu vəziflərə yenidən Vladimir Kolokoltsev, Aleksandr Kurenkov, Konstantin Çuyçenko təyinat alıblar. Mədəniyyət Nazirliyi Olqa Lyubimovaya, Səhiyyə Nazirliyi Mixail Muraşkoya, Tikinti Nazirliyi İrek Fayzullinə, Rəqəmsal İnkişaf Nazirliyi Maksut Şadayevə, Uzaq Şərqin İnkişaf Nazirliyi Aleksey Çekunkova tapşırılıb. Rusiya mediasının yaydığı məlumata görə, yeni kabinetin bir sıra üzvləri Prezident Putini yaxın günlərdə reallaşacaq Çin səfəri zamanı müşayiət edəcəklər.

***P.İSMAYILOV***

# Bayden "veto" qoyacaq...

## ABŞ Prezidenti Konqresin İsrailə silah tədarükünün dayandırılmasını qadağan edən qanunu qəbul edəcəyi təqdirdə hansı addımı atacaq?



***N.BAYRAMLI***

Yaxın Şərqdə vəziyyət gərgin olaraq qalır. Qəzza bölgəsində baş verənlər İsrail ilə Fələstin arasında uzun illərdir ki, davam edən ədavətin bitməsi üçün indiyədək görülən bütün işlərin fiaskoya uğradığını göstərir. Müəyyən beynəlxalq güclər bu regionda münaqişənin davam etməsinə maraqlıdır. Burada əsas rolu isə ABŞ oynayır. Ötən ilin oktyabrında münaqişənin yenindən alovlanmasından sonra rəsmi Vaşinqton digər ölkələrin sülh təşəbbüslərinin qarşısını alır, eləcə də yüksək rəsmi şəxslər region ölkələrinə səfər edərək onları vəziyyətə müdaxilə etməmək üçün təhdid edir.

Belə bir şəraitdə ayrı-ayrı ölkələr tərəfindən münaqişə iştirakçıları silahlandırılır. Yeri gəlmişkən, ABŞ Konqresi İsrailə silah tədarükünün dayandırılmasını qadağan edən qanun layihəsini qəbul etsə, Prezident Cozef Bayden ona veto qoymaq niyyətindədir. Bu barədə "The Hill" qəzeti Ağ Evə istinadən xəbər yayıb. Qəzet yazır ki, Bayden Nümayəndələr Palatasının respublikaçı üzvlərinin ona İsrailə silah göndərməsi üçün təzyiq göstərmək məqsədilə hazırlanmış qanun layihəsinə veto qoyacaq. Bayden İsrail ordusu Qəzza zolağındakı Rəfah şəhərində əməliyyata başlayarsa, bu ölkəyə bəzi növ hücum silahları verməkdən imtina edəcəyi barədə xəbərdarlıq etdikdən sonra respublikaçılar qanun layihəsini təqdim ediblər. Qanun layihəsi israillilər dərhal müdafiə vasitələri ilə təmin etməyə çağırır, Baydenin təchizatı dayandırmaq qərarını pisləyir və İsrailin özünümüdafiə hüququnu təsdiqləyir.

Bundan əlavə, "The Wall Street Journal" (WSJ) məlumat yayıb ki, ABŞ Prezidenti Cozef Baydenin administrasiyası İsrailə dəyəri 1 milyard dollardan çox olan yeni silahların verilməsi təklifi üzərində işləyir. Məlumata görə, buna 700 milyon dollarlıq tank sursatları, 500 milyon dollarlıq taktiki maşınlar və 60 milyon dollarlıq minaatan mərmiləri daxildir. Nəşrin qeyd etdiyi kimi, silah tədarükünü davam etdirmək qərarı Baydenin İsrail hakimiyyəti ilə fikir ayrılıqlarını dərinləşdirmək istəmədiyini göstərir.

ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sullivan isə bu həftənin sonu Səudiyyə Ərəbistanı və İsrailə səfər edəcək. Bu barədə "Axios" portalı məlumat yayıb. Səfər zamanı danışıqlarda Rəfah şəhəri ətrafındakı vəziyyət və Yaxın Şərqdə "normallaşma perspektivləri" müzakirə olunacaq. Milli təhlükəsizlik üzrə müşavirin Səudiyyə Ərəbistanının Vəliəhd şahzadəsi Məhəmməd bin Salman Əl Səud və İsrailin Baş naziri Benyamin Netanyahu tərəfindən qəbul ediləcəyi də gözlənilir.

Hazırkı proseslər isə müəyyən beynəlxalq güclərin bölgə üçün yeni planlar qurmasından xəbər verir. "Bloomberg" nəşrinin məlumatına görə, ABŞ və İsrail HƏMAS-ın məğlub olacağı təqdirdə Qəzzanın gələcəyini müzakirə edirlər. Bir müddət öncə nəşr öz mənbələrinə istinadən yazıb ki, ABŞ, Böyük Britaniya və Fransa hərbçilərinin daxil ola biləcəyi çoxmillətli sülhməramlı qüvvələrin Qəzza zolağına gətirilməsi variantı da nəzərdən keçirilir. Eyni zamanda, Milli Təhlükəsizlik Şurasının sözçüsü Adrian Uatson bildirib ki, belə bir variant müzakirə olunmur. Bundan əlavə, nəşrin mənbələrinin bildirdiyinə görə, Bayden belə bir qərarı siyasi baxımdan riskli hesab edərək, hətta kiçik qruplar şəklində də ölkə qoşunlarını İsrailə göndərmək istəmir. Bununla belə, Dövlət katibi Antoni Blinken Senatda deyib ki, Qəzza zolağına HƏMAS-ın rəhbərlik etdiyi status-kvoya qayıtmaq olmaz. İsrailin Baş naziri Benyamin Netanyahu isə Qəzzadakı əməliyyatların qələbəyə qədər davam edəcəyini deyib.

Hazırkı qarşıdurma Qəzzada minlərlə günahsız insanın ölümünə səbəb olub. Bir sıra dövlətlər bölgədə atəşkəsin elan olunmasına, tərəfləri sülhə gəlməyə çağırır. Türkiyə, regiondakı ölkələr, xüsusilə, Qətər, Misir və Səudiyyə Ərəbistanı sabitliyin bərpası üçün müxtəlif təşəbbüslərlə çıxış edir. Amma ortada müsbət nəticə yoxdur. Bugünlərdə Dohada keçirilən Qətər İqtisadi Forumunda Qətər hökumətinin başçısı, xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdül Rəhman Əl Tani deyib ki, Qəzza zolağında atəşkəs danışıqları fələstinli məcburi köçkünlərin əksəriyyətinin sığındığı Rəfahda İsrailin başlatdığı əməliyyat səbəbindən dalana dirənib: "Son bir neçə həftədə biz müəyyən impuls görürdük, lakin təəssüf ki, danışıqlar prosesi düzgün istiqamətdə getmədi. Biz indi demək olar ki, tamamilə dalana dirənmiş vəziyyətdəyik. Rəfahla bağlı baş verənlər bizi geri atdı".

Bütün bunların fonunda görünən odur ki, müəyyən beynəlxalq güclər Yaxın Şərqdə münaqişənin uzanmasının tərəfdarıdır. Yaxın Şərqdə münaqişənin uzanması imperialist dairələrin öz qlobal maraqlarını təmin etmək üçün bir vasitədir. Əzilən və əziyyət çəkən isə hər iki tərəfdən sadə xalqdır.

# Bob Menendes məhkəmə qarşısında

## Ermənipərəst senatoru ciddi cəza gözləyir

***N.BAYRAMLI***



ABŞ Senatının Xarici Əlaqələr Komitəsinə rəhbərlik etmiş qatı ermənipərəst senator Bob Menendesin məhkəmə prosesi başlayıb. Əsasən korrupsiyada ittiham olunan senatorun məhkəmə prosesi bir neçə gün öncə münsiflərin seçimi ilə başlayıb. Dairə hakimi Sidney Steinin sözlərinə görə, məhkəmə iyunun sonu və ya iyulun əvvəlinə kimi davam edəcək.

Nyu-Cersi ştatı üzrə Demokratlar Partiyasından olan senator Bob Menendesə qarşı cinayət işi Nyu-Yorkda Manhetten Federal Məhkəməsi tərəfindən ötən ilin sentyabrında başladılıb. Bir ay sonra isə ittiham aktına Misir və Qətər hökumətləri üçün xarici agent qismində iştirak etməyə görə yeni maddələr əlavə olunub. Hələ ötən il "USA Today" nəşri Bob Menendes və onun həyat yoldaşı Nadine Arslanyana qarşı irəli sürülmüş ittihamlarla bağlı məqalə dərc etmişdi. Məqalədə ABŞ-ın federal prokurorlarının verdiyi məlumata əsasən bildirilirdi ki, sövdələşmə Menendesin Misir rəsmiləri ilə görüşləri və şam yeməyi zamanı əldə edilib. Belə ki, Misirin hökumətini təmsil edən rəsmilər ABŞ-ın silah satışı və maliyyələşdirilməyə yardım etməsini istəyiblər. Menendes və həmin vaxt hələ onun sevgilisi olan Nadine Arslanyan hər iki məsələdə yardım edə biləcəklərini vəd veriblər. Bunun müqabilində Nyu-Cersidən olan vasitəçi - Vael "Uill" Hana adlı misirəsilli sahibkar Arslanyana, guya kiçik və ya onun iştirak etməsi tələb olunmayan iş vəd edib. Bu təklif, prokurorluğun cütlüyü və Hananı Nyu-Cersi ştatının baş senatorundan Misir hökumətinin aktiv aləti kimi istifadə etmək üçün sövdələşmələrə dair ittihamnamədə araşdırılan hekayənin bir hissəsidir.

Artıq senator həyat yoldaşı Nadine Menendes və Nyu Cersidən olan 3 biznesmenlə birlikdə ittiham olunur. O rüşvət alma, dələduzluq, xarici agent qismində çıxış etmə və mane olmaq kimi ittihamlar da daxil olmaqla 16 cinayət maddəsi üzrə məhkəmə kürsüsünə çıxarılır. Münsiflər seçildikdən sonra ilk dinləmələrin keçirilməsi gözlənilir. Menendezin həyat yoldaşının isə iyul ayında məhkəməsi başlayacaq.

Daha əvvəl onun evində axtarış aparılan zaman 480 min dollardan çox pul, dəyəri 100 min dollardan çox olan 13 qızıl külçə və yaxınlıqdakı bankın seyfindən 80 min dollara yaxın pul aşkar edilib. Senator bununla ikinci dəfədir rüşvət məsələsinə görə məhkəmə qarşısına çıxarılır. İlk dəfə o, 2017-ci ildə həkimlə bərabər rüşvət almada iştirak etdiyinə görə məhkəməlik olmuşdu. Lakin münsiflər yekdil qərara gələ bilmədiyi üçün işə xitam verilmişdi.

Keçən ilin payızında həbs olunduqdan sonra Menendes Senatın Xarici Əlaqələr Komitəsinin sədri vəzifəsindən kənarlaşdırılıb. Bu payız keçiriləcək seçkilərdə o, Demokratlar Partiyasından namizədliyini irəli sürməyəcəyini bildirsə də, müstəqil namizəd kimi seçkilərə qatılacağını istisna etməyib.

Bob Menedes həm də Azərbaycana qarşı çıxışları və ermənipərəst mövqeyi ilə tanınır. Yeri gəlmişkən, Menendesin başına gələn bütün "macəralar" məhz onun ikinci evliliyindən sonra-erməni əsilli Nadine Arslanyanla "birləşəndən" sonra baş verib. "Arslanyan" soyadını Menendesə dəyişən Nadine Livan əsilli ermənidir. Bu evlilik Bob Menendesin yalnız şəxsi həyatını deyil, həm karyerasını, həm də bütövlükdə, düşüncələrini dəyişdi. Arslanyanla tanış olduqdan sonra rüşvətə, korrupsiyaya bulaşan, təmsil etdiyi dövlətin mənafeyinə zidd mövqe tutan, hətta rüşvət alaraq siyasi bəyanatlar verən Menendesin, ittihamlarda dövlət məmurlarının xarici qüvvələrin agenti kimi xidmət etməs qadağasını açıq şəkildə pozduğu qeyd olunub. Bütün bunlar təsdiqləyir ki, ermənipərəst senatoru ciddi cəza gözləyir.

# "Qərbin arzuları"...

## İki hadisəyə baxış - Avropanın ikiüzlü standartı

Yeni dövrdə müasir siyasi yanaşmaların, daha doğrusu xarici təsir imkanlarının və ya vasitələrinin yeni obrazda ortaya çıxması sirr deyil. Artıq klassik siyasi və ya hərbi, eyni zamanda iqtisadi vasitələr, sanksiyalar və ya məhdudlaşdırmalar öz yerini daha yumşaq və daha çox təsiredici vasitələrə verməkdədir. Bunların sırasında Qərbin dilinin əzbərinə çevrilmiş "demokratiya" və "insan hüquqları" kimi institusional məfhumlar xüsusilə fərqlənir. Bu ideoloji silahlarla özünün "hücumunu" planlaşdıran Qərb bu kimi dəyərləri siyasi manipulyasiya vasitəsinə çevirir, maraqları çərçivəsində məhdudlaşdırır və bunun fonunda çoxsaylı ikili standartlar nümunəsi ortaya qoyur.

### Real mənzərə, ikili yanaşma...

Bu yanaşmanın ən real mənzərəsi və ya misalı son günlərdə Cənubi Qafqazda baş verən hadisələrə münasibətdə ortaya qoyulan mövqe ilə izah edilə bilər.

- Birinci hal kimi Ermənistanda baş verənlərə nəzər salaq. Aprelin 19-da Azərbaycan və Ermənistan arasında delimitasiya ilə bağlı əldə edilən razılığın ardından Baş nazir Nikol Paşinyanın istefası tələbi ilə "ortaya çıxan" aksiyalar hələ də davam etməkdədir. Arxiyepiskop Baqrat Qalstanyanın başçılığı ilə "yaradılmış" "Vətən naminə Tavuş" adlı qondarma hərəkat paytaxt İrəvanda mitinq keçirir, itaətsizlik aksiyaları təşkil edir. Bu aksiyalarda isə hər gün onlarla insan saxlanılır, polisin fiziki zorakılığına məruz qalır. Aprel ayından bu yana aksiyalarda xəsarət alan, saxlanılan insanların sayı yüzlərlədir. Son günlərdə, xüsusilə aksiyaların paytaxt küçələrinə transferinin ardından iştirakçılara qarşı polisə müqaviməti daha aydın şəkildə hiss edilməyə başlayıb - hətta aksiya iştirakçılarının bəziləri fərqli ittihamlarla cinayət məsuliyyətinə cəlb ediliblər. Küçə mitinqlərində xəsarət alanlar arasında isə azyaşlılar, qadınlar, yaşlılar da var - bunu, Ermənistan mediası da təsdiqləyir. Aksiyalarda müxalifət fəalları ilə yanaşı, adi vətəndaşlar, hüquq müdafiəçiləri və jurnalistlərə də polis tərəfindən zorakılıq edilir, bəziləri hətta saxlanılır.

-İkinci hal kimi isə Gürcüstanda baş verən son hadisələrə diqqət yetirək. Hakim "Gürcü Arzusu" partiyasının ölkədə QHT sektorunda maliyyə şəffaflığını təmin etməyə hesablanan "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsi parlament müzakirəsinə çıxan və ilkin prosedurlarda keçdikdən sonra buna qarşı etiraz aksiyaları baş tutub. Bu aksiyalarda yerli vətəndaşlarla yanaşı, maraqlıdır ki, xarici vətəndaşlar, hətta ayrı-ayrı Avropa ölkələrinin parlamentariləri həm iştirak, həm də çıxışlar edirlər. Bu aksiyada da baş verənlər diqqətlə izlənir - qanunlara tabe olmayan insanlara qarşı görülən tədbirlər "qeydə alınır", hesabatlar yayılır. Artıq qanun qəbul edilib - yeni qanuna əsasən gəlirlərinin 20 faizindən çoxu xaricdən əldə olunan qeyri-kommersiya hüquqi şəxslərin və KİV-lərin xüsusi reyestrdə qeydiyyata alınmasını nəzərdə tutur. Əks halda isə onları cərimə gözləyəcək. Bununla yanaşı, Ədliyyə Nazirliyi həmin şəxslərlə bağlı araşdırma başlada bilər. Amma deyəsən qanun qəbul olunsa da, "xarici təsir imkanları" hələ də aradan qalxmayıb...




### Ermənistandakı hüquq pozuntuları "gözə dəymir"...

Qərbin Ermənistanda baş verənlərə münasibəti olduqca "təmkinlidir". Yəni, baş verən "hüquq pozuntuları", "zorakılıq faktları", "polisin qeyri-qanuni müdaxiləsi" "Human Rights Watch", "Amnesty International", "Fredoom House" kimi özünü dünyanın əsas insan hüquqlarının müdafiəçisi elan edən təşkilatların, eləcə də beynəlxalq jurnalist təsisatlarının gözündən "yayınır". Avropa İttifaqının Ermənistandakı missiyası belə susur. Qərb institutları baş verənləri görməzdən gəlir - hətta media nümayəndələrinə qarşı edilən zorakılıq faktları ilə bağlı bir cümlə belə fikir irəli sürülmür. Hətta dünən İrəvanda saat 15:00-dan 20:00-dək polis bir çox əsas küçələri vətəndaşların gediş-gəlişi üçün bağladı - bu, əsasən mitinqin keçirildiyi ərazilərə aparan yollar idi. Bununla bağlı teleqram kanallarında məlumat yayıldı. Xatırladaq ki, Baqrat Qalstanyan məhz saat 16:00-a həmin əraziyə mitinq çağırışı etmişdi. Görəsən, hansı səbəbdəndir ki, ABŞ Dövlət Departamenti, Fransa və digər Avropa ölkələrinin XİN-ləri, Avropa Şurası və Avropa Parlamenti, özlərini insan hüquqlarının qoruyucusu elan edən təşkilatlar Ermənistan hakimiyyətinin mitinqə münasibətdə tutduğu mövqeyə münasibət bildirmirlər? Axı, onların təbirincə desək, ortada "insan hüquqlarının pozulması və ya məhdudlaşdırılması" faktı mövcuddur...

### Gürcüstanın maraqları hədəfə alınır

Gürcüstana münasibətdə isə tamam fərqli bir mövqenin və mənzərənin şahidi oluruq - paytaxt Tbilisidə parlament yaxınlığındakı "Qəhrəmanlar" meydanına keçən aksiya iştirakçıları yolu bağlayırlar, hərəkəti tamamilə iflic halına salırlar. Parlamentin binasına hücumlar edilir - sanki polisi qarşıdurmaya cəlb edirlər. Hətta Tiflisdə keçirilən etiraz mitinqində alman və litvalı deputatlar Maykl Rot və Zygimantas Pavilionis hakimiyyətin qərarına qarşı çıxış edirlər. "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsinin geri çəkilməsi barədə tələb "Amnesty İnternational" və digər təşkilatlar tərəfindən qəti şəkildə irəli sürülür -xəbərdarlıqlar edilir. ABŞ-ın mümkün sanksiyaları tətbiq etməsi barədə fikirlər səsləndirilir -xatırladaq ki, ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O Brayen daha əvvəl deyib ki, əgər ölkədə demokratiyaya zərbə vurularsa, Birləşmiş Ştatlar Gürcüstan hakimiyyətinə qarşı sanksiyalar tətbiq edəcək. Fərqli təşkilatların Tbilisidəki nümayəndələri mitinqlərdə boy göstərirlər, baş verənləri qələmə alır, ekranlara daşıyırlar. Ermənistandan fərqli olaraq Gürcüstanda baş verənlər dəqiqəbədəqiqə Avropanın aparıcı telekanallarının xəbərlərini "bəzəyir".

Bəli, insan hüquqları və demokratiyadan, demokratik dəyərlərdən bəhs edən qurumların eyni hadisə üzərindən fərqli münasibətlərinin, ayrı-ayrı ölkələrə yanaş-

### Selektiv yanaşma və ya Qərbin korporativ marağı...

masında ikili standartlar siyasətinin və selektiv mövqeyinin şahidi oluruq. Özünü dünyaya "demokratiya keşikçisi" kimi təqdim edən Qərbin, xüsusilə də Avropanın müvafiq təşkilatlarının bu misalda əsl siması(zlığı) üzə çıxır. İkili standart faktı bariz şəkildə ortadadır - Ermənistanda mitinqlərin dağıdılması, jurnalistlərin həbsi, insan haqlarının pozulmasına dair konkret hadisə və faktlar ortada olduğu halda, sözügedən qurumlar - təşkilatlar susqunluq nümayiş etdirirlər. Gürcüstanda isə hətta missioner yollayıb belə faktların sayının artması üçün "münbit şərait" yaradırlar. Qərbin yalnız öz marağını əsas götürməsi növbəti dəfə təsdiq olunur. Qərb üçün heç bir fərqi yoxdur -Ermənistan və ya Gürcüstan, Paşinyan və ya Zurabaşvili - Qərb üçün əsas olan onun "ideyasının" hakim kəsilməsidir.

Bu kimi faktlar isə bir daha Azərbaycanın dövlət siyasətinin milli mənafeyə, maraqlara söykəndiyini göstərir. Özünün mövqeyini əsas götürən Azərbaycan dövləti üçün ən mühüm prioritet suveren hədəfləridir. Bu hədəflərə çatmaq üçün isə real, açıq, çoxvektorlu xarici siyasət kursu yürüdülür. Azərbaycanın əldə etdiyi nailiyyətin ən mühüm formullarından biri məhz budur...

***P.İSMAYILOV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## Zəhəri dərman, sancması təhlükəli...



***Lamiyə***

Havalar isindikcə torpağın alt qatında “mürgüləyən” ilanlar da digər canlılar kimi gün işığına ehtiyac duyur. Əlbəttə, təbiətin və canlıların insan həyatı üçün ciddi əhəmiyyət daşıması haqqında məlumat yetərincədir. Amma bu gün zəhərindən müxtəlif dərman preparatları hazırlanan, tibbin loqosuna çevrilən ilan sancmalarından söz açacağıq. Zəhəri dərman olsa da, ilan sancmaları zamanı insan ölüm təhlükəsi ilə üz-üzə qalır...

Son illərin statistikasına nəzər yetirsək görərik ki, ilan sancmalarından zərər çəkənlərin sayı artmaqdadır. Zərərçəkənlərin sayı artırsa, deməli bu sürünənlərin də sayı durmadan artır. Bu artıma səbəb nədir? Məlum olduğu kimi, dünyada baş verən iqlim dəyişiklikləri ölkəmizdən də yan keçmir. İlanların sayının artmasına başlıca səbəblərdən biri də qlobal istiləşmə nəticəsində quraqlığın artmasıdır. İlanlar, əsasən, quraq ərazi sevən canlılardır. Digər bir səbəb kimi isə Bakıda aparılan inşaat işlərini göstərmək olar. Dərin təməllər qazıldıqca, torpağın alt qatlarından çıxan ilanlar ətrafa səpələnən qum-torpaq sahələrində rahatlıqla hərəkət edə bilir. Adətən, şəhərdən uzaq yerlərdə görməyə alışdığımız zəhərli ilan və əqrəblər artıq böyük şəhərlərdə, paytaxtda da ara-sıra peyda olur.

### İlan sancmaları zamanı nə etməli?

Xatırladaq ki, ötən ilin may ayında ilanlar Bakının mərkəzində, hətta insanların sıx olduğu yerlərdə də görünmüşdü. İlanların sayının artması paytaxt sakinlərinin ciddi narahatlığına səbəb olur. Xüsusən, bu canlılar metronun “Elmlər Akademiyası”, Mətbuat prospekti, Nizami rayon və dənizkənarı bulvar ərazisində çoxluq təşkil etmişdi ki, araşdırma apardıqda həmin ərazilərdə geniş inşaat işlərinin şahidi olduq.

**Bu il ilan sancması hallarına rast gəlinibmi?**

Klinik Tibbi Mərkəzin toksikologiya şöbəsinin həkimi Aynur Məmmədova “Yeni Azərbaycan”a bildirib ki, il başlayandan bu günə qədər ilan sancma hadisəsi ilə bağlı şöbəyə 7 xəstə daxil olub. Onlardan 3-ü ağır, 4-ü isə orta ağır vəziyyətdədir və ölüm halı qeydə alınmayıb. Toksikoloq zərərçəkənlər arasında azyaşlı olmadığını söyləyib. Amma orta yaşlı və ahıllarda bu cür xoşagəlməz və ciddi fəsadları ehtimal oluna bilən ilan sancmaları halları müşahidə olunub. Belə ki, ötən ay 69 yaşlı Qax sakini Vaqif Aydınovu həyətindəki hovuzu təmizləyərkən ilan sancmışdı. Zərərçəkmiş dərhal xəstəxanaya çatdırıldığına görə həyatını xilas etmək mümkün olub.

Yay mövsümünün gəlişi ilə əlaqədar təəssüf ki, ilansancma halları bu il də qaçılmazdır. Bəs bu hal baş verərsə, hansı ilkin müdaxilə edilməlidir?

Tibb Universitetinin Daxili xəstəliklər kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru İsmayıl Əfəndiyev qəzetimizə açıqlayıb ki, zəhərli həşərat sancması zamanı ilkin tibb yardım göstərilməsi məsələsi çox vacibdir: “Təəssüf ki, əhali arasında bu mövzu ilə bağlı maarifləndirici tədbirlər görülsə də, çox zaman zərərçəkənin özü və yaxınlarının bəzi yanlış müdaxilələri ciddi fəsadlara gətirib çıxarır. Birinci təlimat budur ki, sancma zamanı xəsarət alan hissə az hərəkət etdirilməlidir. Çünki nə qədər çox hərəkət edilsə, zəhər olduğu bölgədən bədənin digər orqanlara doğru yayılacaq. Həmin yerə soyuq sarğı qoymaq, sıxmamaq və dərhal həkimə müraciət etmək lazımdır. Həkim gələnə qədər isə ev şəraitində ağrıkəsici preparatlar qəbul etmək olar. İlan sancmasından sonrakı 12 saat ərzində xəstə toksikologiya mərkəzinə çatdırılsa, orada ona yardım edilə bilər”. Həkim ilan sancmalarına qarşı vurulan zərdablardan da söz açıb. O deyib ki, zərdab yalnız xəstəxanalarda vurula bilər: “Bu zərdab xüsusi zülal - at qanından düzəldilir. Bəzi insanlarda zərdablara qarşı anafiliktik şok yaranır və xəstə dünyasını dəyişə bilər. Bundan əlavə, heç zərdab da tam qorunma üsulu deyil. Belə hallarda digər müalicə üsulları mümkündür. Bunları da yalnız xəstəxana şəraitində aparmaq olar”.






## Bakcell-in yeni məhsulu - “F1 Star” artıq satışda

Bakcell Azərbaycanda mövcud olan istənilən sürətdən daha sürətli yeni məhsulunu - “F1 Star” fiber internet paketini təqdim edir.

“Ölkənin ən sürətli mobil operatoru” şüarı ilə bütün ölkəyə bənzərsiz internet sürəti təmin edən Bakcell, bu dəfə yeniliyi evlərə gətirir. Özündə mesh Wi-Fi ruterləri birləşdirən məhsul, evin sahəsindən və mərtəbəsindən asılı olmayaraq hər küncündə eyni yüksək sürət performansını göstərəcək.

1 Gigabit sürət imkanına malik “F1 Star” məhsulu 14 may 2024-cü il tarixindən etibarən abunəçilərin ehtiyaclarını qarşılamaq üçün hazırlanmış müxtəlif planları ilə satışa çıxarılıb. Bakcell-in təqdim etdiyi bu eksklüziv məhsul ilə abunəçilər dəyərli anlarını kəsintisiz və sürətli ev interneti vasitəsilə yaşaya bilərlər.

“F1 Star”ın ən sürətli sabit internet olması ilə yanaşı, Bakcell-in mükəmməlliyə, innovasiyaya və Azərbaycan xalqına sadiqliyini təmsil edir. Hədəfimiz yeni məhsulla yanaşı, bütün Azərbaycan ərazisində, xüsusən də Azərbaycan üçün olduqca önəmli və dəyərli anlarla zəngin olan Qarabağda ən sürətli sabit şəbəkəni təmin edərək, dəyər təkliflərini artırmaqdır. Yeniliklərimiz bununla bitmir, yaxın gələcəkdə abunəçilər üçün faydalı bir neçə məhsul seriyası təqdim edəcəyik.” deyə Bakcell-in Baş İcraçı Direktoru Klaus Müller bildirib.

Şirkət haqqında: Bakcell 3 milyondan çox abunəçini ölkənin ən sürətli mobil şəbəkəsi ilə təmin edir. Şirkət NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

*İdman*

## Bakıda Ümummilli Liderin xatirəsinə həsr olunmuş üzgüçülük turniri keçirilib



Bakıda Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Dəmir yumruq” adlı üzgüçülük turniri keçirilib. Tədbir “Baku Oxford School” məktəbinin meydançasında Bakıdakı Rus evi, “PUSH30” İdman Mərkəzi və “VEQAS” İdman Kompleksinin dəstəyi ilə “Qarabağ” Vaterpol Klubu tərəfindən təşkil olunub.

AZƏRTAC Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinə (RİMM) istinadla xəbər verir ki, Bakıdakı Rus evinin rəhbəri İrek Zinnurov yarış iştirakçıları qarşısında çıxış edib.

Müsabiqənin qalibləri xatirə hədiyyələri ilə təltif olunublar.

Turnirdə 28 klubun müxtəlif yaş kateqoriyasına daxil olan 240 idmançısı iştirak edib.

## Daha 8 boksçumuz “Heydər Əliyev Kuboku-2024”ə qələbə ilə başlayıb

Bakıda yeniyetmə boksçular arasında keçirilən “Heydər Əliyev Kuboku-2024” beynəlxalq turnirinin ikinci günündə 6 çəki dərəcəsində 18 döyüş baş tutub.

Azərbaycan Boks Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, 60 kiloqram və 63 kiloqramda 1/8 final mərhələsi yekunlaşdığı halda, digərlərində 1/4 final mərhələsinin görüşləri reallaşıb.

Azərbaycan millisinin daha 8 boksçusu “Heydər Əliyev Kuboku-2024”ə qələbə ilə başlayıb.

Boks Mərkəzində keçirilən ənənəvi turnirin üçüncü günündə 20 görüş keçiriləcək.

1/8 final

60 kiloqram

Nurlan Abışov (Azərbaycan) - İslam Tağıyev (Azərbaycan) - 0:3



Ruhin Səfərov (Azərbaycan) - Yerdavlet Şomekey (Qazaxıstan) - 0:5

Akaki Basarya (Gürcüstan) - Ülvi Qasımzadə (Azərbaycan) - 5:0

Fərid Abbaszadə (Azərbaycan) - İslam Yermuxambet (Qazaxıstan) - ikinci tam üstünlüklə qalib gəlib

63 kiloqram

Bibaris Aşırbay (Qazaxıstan) - Tanrıverdi Məmmədli (Azərbaycan) - 5:0

Nika Beraya (Gürcüstan) - Dəniz Zeynalov (Azərbaycan) - birinci qalib gəlib

Sultan Satbay (Qazaxıstan) - Azad Cavadzadə (Azərbaycan) - 5:0

1/4 final

52 kiloqram

Bağır Əmirxanlı (Azərbaycan) - Sandro Papidze (Gürcüstan) - 4:1

Raul Heydərli (Azərbaycan) - Nihad Bayramov (Azərbaycan) - 4:1

Temirxan Jolmaxan (Qazaxıstan) - Elxan Əlizadə (Azərbaycan) - birinci tam üstünlüklə qalib gəlib

Əli Baxışov (Azərbaycan) - Damir Akimbayev (Qazaxıstan) - 5:0

54 kiloqram

Sübhan Babayev (Azərbaycan) - Xleb Kuzmiç (Belarus) - 5:0

Dəniz Mirağayev (Azərbaycan) - Giorgi Kilasonya (Gürcüstan) - ikinci tam üstünlüklə qalib gəlib

Ramiz Əsgərov (Azərbaycan) - Umar Madaminov (Qırğızıstan) - 0:3

66 kiloqram

Valeh Eyvazlı (Azərbaycan) - Sarvan Abdullazadə (Azərbaycan) - 4:1

Kənan Qəniyev (Azərbaycan) - Raul Əsədullayev (Azərbaycan) - 0:5

+80 kiloqram

Vladislav Samojonov (Qazaxıstan) - Zaur Səmədov (Azərbaycan) - 5:0

Kamran Qəniyev (Azərbaycan) - Səftər Məmmədzadə (Azərbaycan) - ikinci tam üstünlüklə qalib gəlib

Qeyd edək ki, yarışda final döyüşləri mayın 18-də olacaq.






## “AZERCELL CUP 2024” müsabiqəsinə start verilir!

Lider mobil operator 6-7-ci sinif şagirdlərini İnformatika və Proqramlaşdırma Müsabiqəsində iştirak etməyə dəvət edir

“Azercell Telekom” Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutu ilə birgə əməkdaşlıq çərçivəsində növbəti “AZERCELL CUP” müsabiqəsini elan edir. Məktəblilərin informatika və kompüter elmləri sahəsində inkişafının dəstəklənməsi məqsədi daşıyan müsabiqədə 6-7-ci sinif şagirdləri iştirak edəcək.

Müsabiqəyə qeydiyyat https://azercellcup.org saytı üzərindən 15-19 may tarixlərində təşkil olunacaq. Üç mərhələdən ibarət müsabiqənin birinci turu 20 may saat 10:00-18:00 arasında keçiriləcək.

Şagirdlərin yarış mühiti ilə tanışlığını təmin etmək üçün 15-19 may tarixlərində əvvəlki illərin sualları əsasında sınaq imtahanı keçiriləcək. Qeydiyyatdan keçənlər sınaq imtahanında iştirak edə bilərlər. Sınaq imtahanının nəticəsi əsas yarışa təsir etmir, sadəcə təcrübə toplamaq məqsədi ilə təşkil edilir.

Müsabiqədə 2000 şagirdin iştirakı nəzərdə tutulub. Yarışın sonunda 24 nəfər qalib elan ediləcək. Qaliblər beynəlxalq olimpiadalara hazırlıq dərslərinə cəlb olunacaqlar.

Qeyd edək ki, 2017-ci ildən etibarən informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi “Azercell Telekom” MMC-nin dəstəyi ilə həyata keçirilir. Bu müddət ərzində Azərbaycanın bölgələrindən və paytaxt məktəblərindən olan şagirdlərimiz fərqli yaş qrupları üzrə müxtəlif miqyaslı proqramlaşdırma müsabiqələrində ümumilikdə 70 medal qazanıblar.

Rəqəmsal gələcəyi birlikdə proqramlaşdıraq!

## Azərbaycanın kişi voleybol millisi Qızıl Avropa Liqasına hazırlaşır



Kişi voleybolçulardan ibarət Azərbaycan millisi Qızıl Avropa Liqasına hazırlıqlarını davam etdirir.

AZƏRTAC xəbər verir ki, yığma baş məşqçi Fərid Cəlalovun rəhbərliyi altında Gənclər və İdman Nazirliyinin Voleybol Mərkəzində təlim-məşq toplanışı keçir.

Hazırlıq prosesində təcrübəli oyunçularla yanaşı, gənc voleybolçular da iştirak edirlər.

Qeyd edək ki, milli komanda mübarizəyə mayın 17-də start verəcək. Mayın 17-19-da Azərbaycanda baş tutacaq ilk turda rəqiblər Rumıniya və Ukrayna yığmaları olacaq. Mayın 24-dən 26-dək Belçikada keçiriləcək ikinci turda isə milli komandamız meydan sahibi ilə yanaşı, Şimali Makedoniya yığması ilə üz-üzə gələcək. Üçüncü tur 31 may-2 iyunda Estoniyada reallaşacaq. Burada rəqiblər ev sahibi komanda və Lüksemburq olacaq.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5656**
**Sifariş: 1091**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Pərviz SADAYOĞLU